D İ Q Q Ə T !

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 155 (6119) 8 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Azərbaycan dövləti təhsilin inkişafına böyük diqqət göstərir

*Prezident İlham Əliyev Bakıdakı 251 nömrəli məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib*

Bax 2



## Hikmət Hacıyev: "Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar"




Bax 6

**Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar ki, bundan başqa dövlətlər də faydalana bilərlər. Regionda sülhün bərqərar olması isə Ermənistan silahlı qüvvələrinin...**

## Emmanüel Düpüi: "Ermənistanın əl atdığı mənasız təbliğat vasitələri bu ölkədəki siyasi rejimin zəifliyini göstərir"

**Sosial şəbəkələrdə Nikol Paşinyanın arvadının əlində "Kalaşnikov" tipli avtomat olan şəkilləri yayılır. Bu şəkillər vasitəsilə erməni xalqını birləşdirməyə cəhd edildiyi görünür. Həmçinin bu şəkillər Ermənistanda rejimin zəifliyini...**



Bax 5

## "Politik": "Paşinyanı uzaqlaşdırıb, Ermənistanı soroslaşdıracaqlar"

**"Ən azı yaxın 15 illiklər göstərdi ki, rəngli inqilabların baş verdiyi bütün ölkələrdə hakimiyyətə, ya da administrativ strukturlara yiyələnən qərbyönümlü sorosçular, ilk növbədə, hüquqmühafizə və güc strukturlarında, imkan olanda isə xüsusi xidmət orqanlarında öz nəzarətlərini qurmağa çalışırlar". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Politik" portalı...**



Bax 12

## Texnologiyanın inkişafı kitablara marağı üstələyir?

Bax 7



**Bəzən bizlərin səssiz dostları, bəzən tənha olduğumuz zamanlarda bizə yoldaş olan kitablardan danışacağıq bu gün. Kitab oxumaq insana nə qazandırır? Texnologiyanın həyatımızın mərkəzində olduğu bir zamanda kitablara meylin azalması bizdə mənəvi olaraq hansı itkilərin olmasına gətirib çıxarır? Bəs mütaliə? Heç kimə sirr deyil ki, sosial...**

## Armen Kazaryan: "Avropada sığınacaq axtaran Ermənistan vətəndaşları rədd edilir"

Avropada sığınacaq üçün müraciət etmiş Ermənistan vətəndaşlarının böyük əksəriyyətinin müraciətləri qəbul edilmir və rədd edilir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki...



Bax 12

### AXCP-Müsavat ReAl-a qaşrı çıxdı və hansı cavablarını aldı?



Bax 14

### Rayonlara gediş-gəlişin bərpası daxili turizmə necə təsir edəcək?



Bax 7

### Bəhruz Quliyev Reaksiya TV-nin qonağı olub



# Azərbaycan dövləti təhsilin inkişafına böyük diqqət göstərir

*Prezident İlham Əliyev Bakıdakı 251 nömrəli məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib*




















***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, 1974-cü ildən fəaliyyətdə olan məktəbdə ümumilikdə 1700-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Şagirdlərin təxminən yarısı ikinci növbədə dərsə gəlirdi. Böyük sıxlıq var idi. Yeni korpus bu problemi aradan qaldıracaq.

Dördmərtəbəli yeni korpus 840 şagird yerlikdir. Burada kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar var. Bütün otaqlar elektron vasitələrlə və proyektorlarla təchiz olunub. Məktəbin şagirdləri də uğurları ilə fərqlənirlər. Onlar Rumıniyada, Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar.

Təhsil ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev məktəbin direktoru Aygün Əzizovaya dedi:

-Şagirdlərə və valideynlərə mənim salamımı çatdırın.

Prezident İlham Əliyevin 251 nömrəli məktəblə tanışlığı təkcə təhsil ocağının kollektivi üçün deyil, ətrafda yaşayan sakinlər üçün də yaddaqalan oldu. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlətimizin başçısını salamladılar. Beləliklə, növbəti məktəbin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

# “Bizim münasibətlərimiz sürətlə inkişaf edir və yüksək səviyyəyə qalxıbdır”

## *Prezident İlham Əliyev İranın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Seyid Abbas Musəvi dedi:**

-Cənab Prezident, İran İslam Respublikasının fövqəladə və səlahiyyətli səfiri kimi etimadnaməmi və sələfimin geri çağırılma məktubunu Zati-alinizə təqdim etmək mənim üçün şərəfdir. Eləcə də icazə verin İran İslam Respublikasının Prezidenti doktor Həsən Ruhaninin ən səmimi salamlarını Sizə çatdırım. Təşəkkür edirəm.



Prezident İlham Əliyev: Hörmətli cənab səfir, mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Xahiş edirəm, ilk növbədə, mənim səmimi salamlarımı dostum və qardaşım Prezident cənab Ruhaniyə çatdırasınız.

Sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, siz öz fəaliyyətinizlə iki ölkə arasındakı əlaqələrə dəyərli töhfə verəcəksiniz və bundan sonra da əlaqələrimiz uğurla inkişaf edəcək.

Bildiyiniz kimi, son bir neçə il ərzində Prezident Ruhani ilə bizim 10-dan çox görüşümüz olubdur. Bu görüşlər əsnasında müzakirə olunan bir çox məsələlər və qəbul edilmiş qərarlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır. Bir çox sənədlər imzalandı. Bu sənədlər demək olar ki, bütün sahələri əhatə edir. Biz həmişə beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizin mövqeyini dəstəkləyirik. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) - bu təşkilatlar çərçivəsində həmişə həmrəylik göstəririk.

Təxminən iki ay bundan əvvəl Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təcavüzü ilə əlaqədar Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın mövqeyini və haqq işini dəstəkləyən, Ermənistanın addımlarını pisləyən qətnamələr qəbul etmiş və açıqlamalar vermişdir. İran İslam Respublikası bu iki təşkilatın fəal üzvü kimi bu mövqeyə qoşularaq növbəti dəfə Azərbaycana öz dəstəyini göstərmişdir. Buna görə mən sizə minnətdaram.

Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşüb. Azərbaycan vətəndaşlarının qaçqın-köçkün vəziyyətinə düşməsi məhz bu işğalın nəticəsidir. Bizə - azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb, Xocalı soyqırımı törədilib. Bizim tarixi-dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Dini abidələrimiz təhqir edilib. İşğal edilmiş ərazilərdə məscidlərimiz ermənilər tərəfindən dağıdılıb və bəzi məscidlərdə hətta onlar heyvan saxlayırlar. Bu çirkin əməlləri əks etdirən bir çox video və foto sənədlər, sübutlar vardır. Onları internetdə tapmaq olar. Bu, təkcə bizə qarşı yox, bütün müsəlman dünyasına qarşı edilən cinayətdir.

Bildiyiniz kimi, Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verir və böyük səylər göstərir. Azərbaycan İslam aləminin birləşməsi və bəzi ölkələr arasında mövcud olan problemlərin həlli istiqamətində hər zaman öz əlavə səylərini göstərməyə hazırdır.

Onu da bildirməliyəm ki, bizim ölkələrimiz, eyni zamanda, xarici siyasət istiqamətində üçtərəfli əməkdaşlıq formatlarında da fəal iştirak edir. Artıq neçə ildir ki, Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlıq formatı mövcuddur və bu format çox səmərəlidir.

Qonşu ölkələr arasındakı əlaqələr və bu əlaqələrin inkişafı bölgədə sabitliyin, sülhün təminatçısıdır. Xəzər dənizinin hüquqi statusunun, nəhayət, öz həllini tapması bütün Xəzəryanı ölkələrin niyyətini göstərir, bizim siyasətimizi göstərir və bu ölkələr arasındakı dostluğu göstərir.

İkitərəfli münasibətlərimizə gəldikdə, bir daha demək istəyirəm ki, bizim münasibətlərimiz sürətlə inkişaf edir və yüksək səviyyəyə qalxıbdır. Prezident cənab Ruhani ilə iyulun sonunda mənim telefon danışığım olubdur. Bir çox önəmli məsələlər müzakirə olundu və razılığa gəldik ki, bizim müvafiq hökumət üzvləri bir-biri ilə bu pandemiya dövründə videokonfranslar formatında görüşlər keçirsinlər və artıq bir çox görüşlər keçirildi. Bunun çox böyük önəmi var. Çünki biz istəmirik ki, vaxt itirək. Çünki pandemiya təbii ki, işimizə müdaxilə etmişdir.



Əminəm ki, gələcək illərdə bu gün reallaşmaqda olan önəmli nəqliyyat və enerji layihələri daha da geniş miqyas alacaq. Bildiyiniz kimi, Şimal-Cənub nəqliyyat dəhlizi təkcə bizim ölkələrimizi yox, bütün Avrasiya məkanını birləşdirə bilər. Həm İran, həm Azərbaycan bu dəhlizin fəaliyyətə başlaması və gələcək inkişafı işində çox böyük səylər göstərir. Bütün başqa sahələrdə - sərmayə qoyuluşu, elektroenergetika sahələrində və digər sahələrdə yaxşı nəticələr var. O cümlədən hərbi-texniki sahədə də əlaqələrimiz artıq böyük tarixə malikdir və yeni razılaşmalar əldə edilib. Əminəm ki, bu sahədə də bizim əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz, sizi bir daha salamlayıram.

Səfir Seyid Abbas Musəvi: Məni bu gün qəbul etdiyinizə görə çox təşəkkür edirəm.

İkitərəfli münasibətlər haqqında Siz geniş danışdınız və mən bu barədə əlavə bir söz deməyə lüzum görmürəm. Mən cənab doktor Ruhaninin səmimi salamlarını Sizə çatdırıram. Eləcə də bizim Kabinet üzvlərinin, xüsusilə də Xarici İşlər nazirimizin salamlarını çatdırıram.

Mən Sizi əmin edirəm ki, İran İslam Respublikasının bütün rəhbər şəxslərinin iradəsi və istəyi ikitərəfli münasibətləri daha da inkişaf etdirmək və möhkəmləndirməkdir. Allaha şükürlər olsun ki, Sizin müdrikliyiniz sayəsində, eləcə də İran İslam Respublikasının rəhbərlərinin müdrikliyi sayəsində iki ölkə arasında münasibətlər gündən-günə inkişaf etməkdədir.

İran İslam Respublikasının xarici siyasətində qonşu ölkələrlə, xüsusilə də Azərbaycan Respublikası ilə münasibətlər önəmli rola malikdir. Bizimlə qonşu olan 15 ölkə var. Bu ölkələr arasında biz Azərbaycanla xüsusi münasibətlərə malikik. Mənim missiyam bu iki dost, qardaş və müsəlman ölkələr arasında münasibətləri daha da möhkəmləndirməkdir. Mən ölkələrimizin münasibətlərinin genişləndirilməsində hər hansı bir maneə görmürəm. Sizin, eləcə də Kabinet üzvlərinin dəstəyi ilə bu münasibətlər gündən-günə inkişaf etdiriləcək.

İran İslam Respublikasının xalqı və dövləti Sizin mart ayında İrana səfərinizi səbirsizliklə gözləyirdi. Lakin təəssüflər olsun ki, pandemiyaya görə bu səfər baş tutmadı. İran xalqı və İran dövləti hələ də bu səfəri səbirsizliklə gözləyir və mən yenidən bu dəvəti Sizə çatdırıram.

Bizim qonşuluq, dostluq münasibətlərimiz xüsusi münasibətlərdir və heç bir üçüncü qüvvə bu münasibətlərə xələl gətirə bilməz. İran İslam Respublikası Azərbaycan Respublikasının işğal olunmuş əraziləri məsələsində, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir. Biz hesab edirik ki, bu münaqişə beynəlxalq qanunlar, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll olunmalıdır.

Siz də qeyd etdiyiniz kimi, bizim üçtərəfli və dördtərəfli regional əməkdaşlığımız bundan sonra da davam edəcək. Regional və beynəlxalq təşkilatlar çərçivəsində bizim ortaq mövqelərimiz var və bir-birimizin mövqelərini dəstəkləməyə davam edəcəyik. Mən əminəm ki, Sizin müdrikliyiniz sayəsində hazırda yüksək səviyyədə olan münasibətlərimiz bundan sonra da inkişaf edəcəkdir. İnşallah, tezliklə Sizin və cənab Prezident Həsən Ruhaninin iştirakı ilə keçiriləcək videokonfransda biz münasibətlərimizin daha da inkişaf etdirilməsinin şahidi olacağıq.

# Hikmət Hacıyev: “Türkiyənin uğurlarına Azərbaycan ürəkdən sevinir”

***Azərbaycan ilə Türkiyə “bir millət, iki dövlət” şüarı ilə hər zaman bir-birinin yanındadır. Qardaş Türkiyənin iqtisadiyyatdan xarici siyasətədək hər sahədə əldə etdiyi uğurlara Azərbaycan ürəkdən sevinir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, ilk növbədə, hər iki ölkənin qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir.***




Bu baxımdan hər iki ölkənin dövlət və özəl media qurumlarının yaxın əməkdaşlığı bu əlaqələrin daha da güclənməsinə əhəmiyyətli dərəcədə fayda verəcək”. SİAxəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və bir sıra dövlət və media qurumlarının rəhbər şəxsləri ilə görüşündə bildirib.

Hikmət Hacıyev televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsinin, mütəxəssis mübadiləi proqramlarının hazırlanmasının, eləcə də texnologiya sahəsində əməkdaşlığın hər iki ölkəyə qarşı həyata keçirilən qaralama kampaniyası ilə mübarizədə də əhəmiyyətli rol oynayacağını bildirib.

Dünən olduğu kimi, bu gün də Türkiyə ilə Azərbaycanın “bir millət, iki dövlət” şüarı altında hərəkət etdiyini, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bu anlayışı, sadəcə, sözdə deyil, əməldə də dünyaya nümayiş etdirdiklərini deyən Fəxrəddin Altun bütün sahələr üzrə əlaqələrin, o cümlədən beynəlxalq və regional mövzularda iki ölkənin qurumları arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. F.Altun ölkələrimiz arasında qardaşlıq əlaqələrinin son illər artan əməkdaşlıq layihələri ilə daha da möhkəmləndiyini bildirib. O, Türkiyə ilə Azərbaycan arasında media əlaqələri və ictimai diplomatiya sahəsində əməkdaşlığın genişləndirilməsinin, bu sahələrdəki imkanların birləşdirilməsinin hər iki ölkə üçün mühüm rol oynadığını diqqətə çatdırıb.

Doğru məlumatın sürətlə yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasından tutmuş, yalan xəbər və dezinformasiyaya qarşı mübarizəyə qədər geniş bir sahədə Türkiyə ilə Azərbaycan arasında ortaq fəaliyyət göstərəcəklərini söyləyən F.Altun deyib: “Bu nöqtədə Türkiyə-Azərbaycan Media Platforması yaradılması məsələsində razılığa gəldik. Bu platforma vasitəsilə iki ölkə mediasının inteqrasiya olunmuş şəkildə hərəkət etməsi, xalqların məlumatlandırılması məsələsində səmərəli fəaliyyət göstərilməsi, xüsusilə sosial mediada yayılan dezinformasiyalar və ölkə xaricindən gələn qara piarlara qarşı mübarizədə vahid strategiyaların yaradılması məsələlərini müzakirə etdik”.

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi Azərbaycanla Türkiyə arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılmasını genişləndirməkdir.

Görüşdə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Əhməd İsmayılov, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov, Türkiyə tərəfdən isə Prezident Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin sədr müavinləri Mehmet Zahid Sobacı və Çağatay Özdəmir, Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan və digər şəxslər iştirak ediblər. Azərbaycan nümayəndə heyətini ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim və İstanbuldakı baş konsulu Nərminə Mustafayeva müşayiət edirlər.





## “Azərbaycanla Türkiyə “Bir millət, iki dövlət” şüarı ilə hər zaman bir-birinin yanındadır”

***Azərbaycan ilə Türkiyə “Bir millət, iki dövlət” şüarı ilə hər zaman bir-birinin yanındadır. Qardaş Türkiyənin iqtisadiyyatdan xarici siyasətədək hər sahədə əldə etdiyi uğurlara Azərbaycan ürəkdən sevinir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, ilk növbədə, hər iki ölkənin qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir. Bu baxımdan hər iki ölkənin dövlət və özəl media qurumlarının yaxın əməkdaşlığı bu əlaqələrin daha da güclənməsinə əhəmiyyətli dərəcədə fayda verəcək. SİA-nın məlumatına görə, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və bir sıra dövlət və media qurumlarının rəhbər şəxsləri ilə görüşündə bildirib.***

Hikmət Hacıyev televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsinin, mütəxəssis mübadilə proqramlarının hazırlanmasının, eləcə də texnologiya sahəsində əməkdaşlığın hər iki ölkəyə qarşı həyata keçirilən qaralama kampaniyası ilə mübarizədə də əhəmiyyətli rol oynayacağını bildirib.

Dünən olduğu kimi, bu gün də Türkiyə ilə Azərbaycanın “bir millər, iki dövlət” şüarı altında hərəkət etdiyini, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bu anlayışı sadəcə sözdə deyil, əməldə də dünyaya nümayiş etdirdiklərini deyən Fəxrəddin Altun bütün sahələr üzrə əlaqələrin, o cümlədən beynəlxalq və regional mövzularda iki ölkənin qurumları arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. F.Altun ölkələrimiz arasında qardaşlıq əlaqələrinin son illər artan əməkdaşlıq layihələri ilə daha da möhkəmləndiyini bildirib. O, Türkiyə ilə Azərbaycan arasında media əlaqələri və ictimai diplomatiya sahəsində əməkdaşlığın genişləndirilməsinin, bu sahələrdəki imkanların birləşdirilməsinin hər iki ölkə üçün mühüm rol oynadığı diqqətə çatdırıb.

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi Azərbaycanla Türkiyə arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılmasını genişləndirməkdir.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov daxildir. Nümayəndə heyətini Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva müşayiət edirlər.

# Ceyhun Bayramov İranın yeni səfiri ilə görüşüb

***Dünən Xarici İşlər naziri Ceyhun Bayramov İran islam Respublikasının ölkəmizə təyin edilmiş yeni səfiri Seyid Abbas Musəvini qəbul edib. SİA-nın məlumatına görə, bu barədə məlumatı Xarici İşlər Nazirliyi yayıb. Qeyd olunub ki, İran səfiri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir Ceyhun Bayramov Seyid Abbas Musəvini Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.***

Tərəflər iki ölkə arasında dərin tarixi köklərə əsaslanan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin qarşılıqlı hörmət və dəstək formasında inkişafından bəhs edib, əməkdaşlıq gündəliyində duran məsələlərin səmərəli şəkildə həyata keçirilməsi yolları üzrə fikir mübadiləsi apardılar. Çoxtərəfli platformalarda uğurla əməkdaşlığın davam etdirilməsi məsələləri müzakirə edilib.

Səfir Seyid Abbas Musəvi Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib. Səfir İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin ən səmimi arzularını və təbriklərini nazir Ceyhun Bayramovun diqqətinə çatdırıb. İran səfiri ikitərəfli münasibətlərin dərinləşməsində böyük potensialın olduğunu vurğulayıb. Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünü qeyd edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İranın hər zaman Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli mövqeyini dəstəklədiyinə görə minnətdarlığını ifadə etdi.

Öz növbəsində Səfir Seyid Abbas Musəvi münaqişə məsələsində və Azərbaycanın işğal olunmuş ərazilərinə münasibətdə İranın Azərbaycanın mövqeyini dəstəklədiyini və ölkəsinin münaqişənin həlli üzrə kömək etməyə hər zaman hazır olduğunu vurğuladı. Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr apardılar.



# <u>Emmanüel Düpüi:</u> “Ermənistanın əl atdığı mənasız təbliğat vasitələri bu ölkədəki siyasi rejimin zəifliyini göstərir”

***Sosial şəbəkələrdə Nikol Paşinyanın arvadının əlində “Kalaşnikov” tipli avtomat olan şəkilləri yayılır. Bu şəkillər vasitəsilə erməni xalqını birləşdirməyə cəhd edildiyi görünür. Həmçinin bu şəkillər Ermənistanda rejimin zəifliyini, eləcə də siyasi sahədə dərin fikir ayrılığının olduğunu nümayiş etdirir. Bu isə rejimi belə boş və mənasız təbliğat vasitələrinə əl atmağa vadar edir. Bu şəkillər Ermənistandakı məxməri inqilabdan sonrakı prezident və baş nazir arasındakı münasibətlərin zəif olduğunu göstərir.***



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Avropa Perspektiv Proqnozlar və Təhlükəsizlik İnstitutunun (IPSE) prezidenti Emmanüel Düpüi söyləyib.

E.Düpüi bildirib ki, dünyadakı ermənilərin az bir hissəsinin yaşadığı Ermənistanın erməni mənşəli insanlara mifik torpaqlarına qayıtmaq və ya orada yenidən məskunlaşmaq təklif etməsi məntiqsiz deyil. Suriyadan və ya Livandakı erməni mənşəli insanlar çox açıq şəkildə millətçi hisslərini hələ də saxlayırlar.

Ermənistan fürsətdən yararlanaraq bu siyasi amildən öz xeyrinə istifadə etmək istəyir. Buna görə də işğal etdiyi ərazilərin “legitimliyini” dəstəkləmək üçün xaricdə yaşayan ermənilərin köçürülməsi kimi qeyri-qanuni fəaliyyətə əl atır. Bununla onlar insanları ermənilərin könüllü şəkildə tərk etdiyi Ermənistan və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin boş olmadığına inandırmaq istəyirlər. Yəni, Dağlıq Qarabağdakı azərbaycanlıların etnik təmizlənməsindən sonra buradakı ermənilərin də imkan düşən kimi mühacirət etdiyini gizlətmək niyyəti daşıyır. Ermənistan bu məkanların boşluğunu doldurmağa çalışır və bu məqsədlə geosiyasi “silah”a əl atır.

ATƏT-in faktaraşdırıcı missiyası hesabatında erməni mənşəli xarici ölkə vətəndaşlarının Ermənistan tərəfindən işğal edilən torpaqlarda məskunlaşdırıldığını qeyd etsə də, bununla bağlı hər hansı reaksiya olmayıb.

Fransız ekspert təəssüf hissi ilə qeyd edib: “Minsk qrupu 10 ilə yaxındır demək olar ki, fəaliyyətini dayandırıb və öz təsir gücünü itirib. Hər kəsə məlumdur ki, Minsk qrupu anaxronik cəfəngiyyatdır. Bu qurum 1992-ci ildəki geosiyasi vəziyyətə cavab vermək üçün yaradılmışdı və bu gün bu qurum faktiki olaraq təsirsiz və onun fəaliyyəti nəticəsizdir”.

E.Düpüi vurğulayıb ki, ərazi işğalı məsələsi ilə bağlı beynəlxalq hüquqa da riayət olunmur. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağın işğalı ilə bağlı qəbul etdiyi 4 qətnaməyə riayət edilmir. Beynəlxalq hüquqa riayət olunub-olunmaması önəmli deyil. Əsas məsələ beynəlxalq hüquqa riayət olunması üçün hansı tədbirlərin görülməsinin lazım olduğunu bilməkdir. Çoxtərəfli və çoxmillətli sistemə əsaslanan beynəlxalq hüquq öz missiyasını, yəni, münaqişələrin qarşısını almaq, onları həll etmək və ya problemlərin həllini tapmaq kimi missiyasını yerinə yetirmək baxımından çox zəifləyib. Münaqişələrin əksəriyyəti BMT prosesinə paralel mexanizmlər sayəsində həllini tapır.

“Düşünürəm ki, Cənubi Qafqaz və Qara dəniz regionlarında dondurulmuş münaqişələrə yalnız beynəlxalq hüquqa əsaslanaraq həll tapmaq mümkün deyil. Çünki beynəlxalq hüquq 1992-ci ildən bəri hərdənbir baş verən müxtəlif münaqişələri həll etmək istiqamətində cüzi də olsa dəyişməyib. Yəni, beynəlxalq hüququn həvalə edildiyi aktorlar o qədər zəifləyiblər ki, onun həyata keçirilməsi mümkünsüz olub. BMT-nin fəaliyyəti və istinad prosesləri də çox zəifdir. Yeni beynəlxalq sistem tapmaq lazımdır. Yəqin ki, tezliklə - təşkilatın 75 illik yubileyində onun üzvləri bu məsələni qaldıracaqlar”, - deyə E.Düpüi bildirib.

Diqqətə çatdırılıb ki, beynəlxalq həll mexanizmlərinə əsaslanan beynəlxalq hüquq bu gün münaqişələrin mürəkkəbliyi qarşısında gücsüzdür.

Dondurulmuş münaqişələri həll etmək üçün mühüm aktorların sayını artırmaq lazımdır. Məhz buna görə Minsk qrupu üç ölkədən ibarətdir. Ancaq artıq Minsk+ yaratmaq lazımdır. Cənubi Qafqaz təcrid olunmayıb. O, Avropa, Avrasiya və Mərkəzi Asiyanın gündəliyindədir. Mərkəzi Asiya ilə Avropa arasındakı əlaqələr Cənubi Qafqazda sabitliyi tələb edir. Cənubi Qafqaz, xüsusilə də Azərbaycan, eyni zamanda, həm üfüqi, həm də şaquli dəhliz və platforma rolunu oynayır. Ermənistanın isə yerləşdiyi mövqenin heç bir üstünlüyü yoxdur.

Azərbaycanın coğrafi yerləşməsi bütün dünya ölkələri ilə dialoq üçün əlverişlidir. Coğrafiya tarixdən və geosiyasətdən daha üstündür. Məhz buna görə Azərbaycan bu gün mədəniyyətlər və dinlər arasında platformaya çevrilib.

# Qapalı şəraitdə ictimai iaşə obyektləri necə fəaliyyət göstərəcək?



“İctimai iaşə müəssisələrinin (xüsusilə, kafe və restoranlar) fəaliyyətinə dair metodiki göstərişlər “koronavirusinfo.az” saytında təqdim edilib. Fəaliyyətə başlayacaq müəssisələrdə bu metodiki göstərişlər əsas götürüləcək”. Bu sözləri SİA-ya açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mətbuat katibi Rəvanə Əliyeva deyib. Nazirlər Kabinetinin qərarına əsasən sentyabrın 8-dən etibarən Azərbaycanda ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə veriləcək. Qapalı şəkildə fəaliyyət göstərəcək kafe və restoranlarda fəaliyyətin hansı formada həyata keçiriləcəyi ilə bağlı yeni metodiki göstərişlərin təbliğ edilib-edilməyəcəyi ilə əlaqədar məlumat verən TƏBİB-in mətbuat katibi Rəvanə Əliyeva bildirib ki, daha əvvəl müəyyən edilmiş metodiki qaydalar qapalı şəkildə fəaliyyətə başlayacaq ictimai iaşə obyektlərinə də aid edilir.

Onun sözlərinə görə, istənilən halda bu kimi, eləcə də digər məsələlərdə yeni qərar Operativ Qərargah tərəfindən veriləcək. Belə ki, ictimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlərə aşağıdakılar aid edilir:

- İctimai iaşə müəssisələrində COVID-19 -a yoluxma hallarının və ya virusun yayılmasının qarşısının alınması məqsədilə işçi heyətin virus və əks-epidemik tədbirlər barədə məlumatlandırılması;
- Müəssisə daxilində işçi heyətin şəxsi gigiyena qaydalarına riayət etmə səviyyəsi həmin qaydalar barədə məlumat vərəqələrinin çap edilərək müvafiq sahələrə (soyunub-geyinmə otaqları, sanitar qovşaq, mətbəx və s.) yerləşdirilməsi;
- Yeməklər hazırlanarkən bişirilmə temperaturuna riayət edilməsi, lazımi temperatur dərəcəsinə qədər bişirilməmiş yeməklərlə qidalanmadan qaçınılması;
- Xam məhsulların istifadədən əvvəl təmizlənməsi, yemək dəstlərinin, mətbəx avadanlıqlarının, çirkli səthlərin yuyulub təmizlənməsi prosedurları barədə mütəmadi təlimləndirilməsi;
- Müəssisədə təmizlik və dezinfeksiya işlərinin aparılması üzrə məsul şəxsin təyin edilməsi;
- Məsul şəxs təmizlik və dezinfeksiya işlərinin dövriliyi, tətbiqinə icazə verilən dezinfeksiyaedici maddələrdən düzgün istifadə qaydaları, həmçinin dezinfeksiyanın aparılması qaydaları barədə məlumatlarla təmin edilməsi;
- Sanitar gigiyenik qaydalara əsasən, müəssisələrdə sanitar məişət otaqlarının (sanitar qovşaq, soyunub geyinmə otağı və s.) işlək və təmiz vəziyyətdə saxlanması;
- Müəssisədə axar isti və soyuq su təchizatının təmin edilməsi;

Müəssisənin təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə daimi olaraq təmin edilməsi;

Metodiki göstərişloər:

- Dezinfeksiyaedicidən istifadə etmək üçün müəssisə qurğularla təmin olunmalıdır
- Birdəfəlik istifadə üçün salfetlərlə təmin edilməsi;
- Yetərli sayda tibbi maskaların və əlcəklərin təmini;
- İstifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbaların qoyulması;
- Mətbəxdə, heyət otaqlarında, sanitar qovşaqlarda və xidmət zallarında mütəmadi dezinfeksiya işlərinin aparılmasının təmin edilməsi;
- Qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1m-dən az olmamalıdır və masalar arası məsafələr 2m-dən az olmalıdır.

***Nigar Məmmədova***

# Tural Gəncəliyev AŞPA-da ermənilərin qanunsuz köçürülməsindən danışıb



Tural Gəncəliyev Avropa Şurası Parlament Assambleyasının iclasında Livan ermənilərinin işğal edilmiş Azərbaycan ərazilərinə köçürülməsi məsələsini qaldırıb. SİA-nın verdiyi məlumata görə, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, millət vəkili Tural Gəncəliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) miqrasiya, qaçqınlar and məcburi köçkünlər komitəsinin 7 sentyabr görüşündə Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz köçürülməsi məsələsini qaldırıb.

Beyrutda baş vermiş partlayışdan sonra yaranmış humanitar böhran səbəbindən dünya ictimaiyyətinin Livana dəstəyi fonunda Ermənistan siyasi rəhbərliyinin həlak olmuş insanların acıları üzərində siyasi oyun quraraq öz işğal siyasətini daha da möhkəmlətməyə çalışması AŞPA nümayəndə heyətlərinin diqqətinə çatdırılıb.

İclasda Ermənistan nümayəndə heyətindən də millət vəkili olmasına və moderator tərəfindən Ermənistana cavab haqqı verilməsinə rəğmən erməni vəkil Tatevik Hayrapetyan faktlar qarşısında susmağa məcbur olub.

# Dağlıq Qarabağın azərbaycanlı icması ASAN Radio ilə birgə yeni layihəyə start verir



Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ASAN Radio ilə birgə yeni layihəyə start verir. İcmadan SİA-ya verilən məlumata görə, layihə “Qarabağnamə” adlanır. Həftədə bir dəfə ASAN Radio 100 FM dalğasında efirə gedəcək “Qarabağnamə” Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının beynəlxalq məsələlər şöbəsinin müdiri Aybəniz İsmayılovanın təqdimatında efirə gedəcək.

İcmanın ilk radio layihəsi olan “Qarabağnamə” Ermənistan tərəfindən məhv edilən tarixi, mədəni, dini irsimizin təbliği məsələlərini diqqətdə saxlayacaq. Rəngarəng rublikalarla dinləyicilərin görüşünə gələcək “Qarabağnamə” verlişində qaçqın və məcburi köçkünlərin qayğıları və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının fəaliyyəti ilə bağlı yenliklər də dinləyicilərin diqqətinə təqdim ediləcək.

# “Qarabağ Azərbaycandır!” şüarı yazılmış hava şarı Ukrayna səmasında



Dünən Ukraynada “Qarabağ Azərbaycandır!” şüarı ilə tanıtım aksiyası keçirilib. SİA-nın verdiyi məlumata görə, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun təşkilatçılığı və təşəbbüsü ilə keçirilən aksiya zamanı hava balonunun üzərinə “Qarabağ Azərbaycandır!” şüarı yazılaraq səmaya buraxılıb. Hava şarını Kiyev və Jitomir şəhərlərindən müşahidə etmək mümkün olub.

Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov mətbuata açıqlamasında bildirib ki, bu cür aksiyaların məqsədi Ukrayna cəmiyyətinə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri çatdırmaqdır. Onun sözlərinə görə, bu cür aksiyalar davamlı keçiriləcək. Ukrayna sakinləri hava şarını bir saata yaxın müşahidə edə biliblər.

# Hikmət Hacıyev: "Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar"

***Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar ki, bundan başqa dövlətlər də faydalana bilərlər. Regionda sülhün bərqərar olması isə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmasıdır.***




AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin nüfuzlu "Haber Global" telekanalında çıxışı zamanı bildirib.

Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində erməni təxribatı ilə bağlı suala cavabında Hikmət Hacıyev bunun məqsədli şəkildə törədildiyini, Azərbaycan-Türkiyə qardaşlığının, birgə əzmimizin bu planın qarşısını aldığını bildirib. "İyulun 12-də Ermənistan tərəfindən Tovuz rayonu istiqamətində Azərbaycana qarşı növbəti təxribat törədildi. Bu, Ermənistan-Azərbaycan silahlı qüvvələrinin təmas xəttindən 300 kilometr aralıda baş verən hadisə idi. Hadisənin nədən məhz Tovuzda baş verməsi ilə bağlı sual yaranır. Bunun bir neçə strateji səbəbi var idi. İlk növbədə, Ermənistanın məqsədi Azərbaycanın şərq-qərb platformasına, bizim qardaş Türkiyə ilə birgə həyata keçirdiyimiz TANAP və TAP kimi layihələrimizə bir təhlükə yaratmaq idi. Hədəflərin əsasında ərazi ələ etmək və həmin ərazidə nəzarəti ələ keçirmək də var idi. Eyni zamanda, Ermənistan Qarabağ mövzusundan diqqəti yayındıraraq regionda yeni bir təhlükə mənbəyi yaratmağa çalışırdı. Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı işğal və təcavüzü otuz ildən çoxdur davam edir, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə birgə ətraf yeddi rayonu otuz ildir işğal altındadır. Həmin ərazilərdə etnik təmizləmə həyata keçirilib. Ermənistan tərəfindən beynəlxalq hüququn bütün norma və prinsipləri, BMT-nin Nizamnaməsi pozularaq Azərbaycana qarşı bu kimi əməllər törədilib. Bu azmış kimi, Ermənistan Azərbaycanla sərhəddə də təxribat törətdi", - deyə Prezidentin köməkçisi qeyd edib.

Ermənistan tərəfindən hər zaman təxribatın törədiləcəyinin gözlənildiyini qeyd edən Hikmət Hacıyev deyib ki, Tovuz hadisələrindən sonra Ermənistanın sistemli şəkildə silahlanması davam edir. Ermənistana 500 tondan artıq silah-sursat daşınıb. Bu silah-sursatın nə məqsədlə daşınmasına dair sualımıza biz hələ də cavabımızı ala bilməmişik. Bunu da açıq deməliyik ki, Rusiyanın aidiyyəti rəsmi orqanları qarşısında da bu məsələni qaldırmışıq. Lakin cavab ala bilməmişik.

Son zamanlar erməni diaspor təşkilatlarının qardaş Türkiyəyə və Azərbaycana qarşı genişmiqyaslı qaralama işi apardığını deyən Prezidentin köməkçisi onların bu məqsədlərinə nail ola bilmədiklərini qeyd edib: "Bizim birgə fəaliyyətimiz, həmçinin qardaş Türkiyə ilə media sahəsində əməkdaşlığımız onların bu kimi çirkin təbliğatlarının qarşısını aldı. Beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini dəstəkləyən bəyanatlar verdilər. Dünya media müstəvisində də Azərbaycanın haqq səsi eşidildi. Bu da onu göstərir ki, biz qardaş ölkələr olaraq birlikdə hərəkət edərək doğruları beynəlxalq təşkilatlara daha aktiv şəkildə çatdırmalıyıq".

Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri barədə danışan Hikmət Hacıyev bu təlimlərin illik plana uyğun olaraq həyata keçirildiyini, hərbi təcrübə baxımından çox faydalı olduğunu, eyni zamanda, bu təlimlərin bölgədə sülhə, əməkdaşlığa və təhlükəsizliyə xidmət etdiyini bildirib. Türkiyə əsgərlərinin Azərbaycana gəlməsini yüksək qiymətləndirən Hikmət Hacıyev bunu 1918-ci il hadisələrində göstərilən qardaş dəstəyi ilə müqayisə edib: "Biz Türkiyə əsgərinin Azərbaycanda və ya Azərbaycan əsgərinin Türkiyədə olması ilə bağlı sərhəd qoymuruq. Çünki hər ikisi eyni vətəndir, biz bir millət, iki dövlətik. Lazım olan anda, lazımi yerdə bir-birimizə dəstək veririk. Xarici siyasətdə olduğu kimi, bu mövzularda da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Azərbaycanın Şərqi Aralıq dənizində baş verən hadisələrlə bağlı da Türkiyəyə dəstəyini vurğulamaq istəyirəm. Azərbaycan hər zaman tərəddüd etmədən qardaş Türkiyənin yanındadır və bunu Prezidentimiz İlham Əliyev də qeyd etdi. Türkiyənin bu günlər regional, beynəlxalq müstəvidə milli maraqları, xalqının mənafeyini nəzərə almaqla apardığı aktiv siyasəti görürük və bununla qürur duyuruq".

Türkiyənin Qara dənizdə kəşf etdiyi təbii qaz yatağı ilə bağlı fikirlərini bildirən Hikmət Hacıyev bunun Azərbaycanda sevinclə qarşılandığını vurğulayıb.

Aparıcının Ermənistan qadınlarının müharibəyə hazırlanması ilə bağlı sualına cavabında Hikmət Hacıyev bunun Azərbaycanda təəssüflə qarşılandığını, belə bir şeyin Azərbaycan mədəniyyətinə yad olduğunu qeyd edib, eyni zamanda, bunun Ermənistanda insanlar arasında Azərbaycana, o cümlədən türk millətinə qarşı nifrət siyasətinin sübutu olduğunu vurğulayıb: "Biz yenə də Ermənistana və erməni xalqına üz tutaraq XXI əsrdə bu kimi çirkin təbliğatın qurbanı və keçmişin əsiri olmayaraq gələcəyə baxmağı tövsiyə edirik".

Hazırda Ermənistanda hökm sürən iqtisadi böhranın koronavirus pandemiyası dövründə daha da kəskinləşdiyini deyən Hikmət Hacıyev bildirib ki, istər Aprel döyüşləri, istərsə də Tovuz istiqamətində törədilmiş təxribat bütün dünyaya, o cümlədən Ermənistana göstərdi ki, onların qarşısında artıq peşəkar, güclü Silahlı Qüvvələri, xalqı ilə hökuməti arasında həmrəyliyi olan Azərbaycan var. Ermənistanın atdığı hər səhv addımın çətinlikləri erməni xalqının üzərinə düşür.

# AŞPA komitəsinin iclasında Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz köçürülməsi məsələsi qaldırılıb

***Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Miqrasiya, qaçqınlar and məcburi köçkünlər komitəsinin iclasında Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz köçürülməsi məsələsini qaldırıb.***




AZƏRTAC xəbər verir ki, Beyrutda baş vermiş partlayışdan sonra yaranmış humanitar böhran səbəbindən dünya ictimaiyyətinin Livana dəstəyi fonunda Ermənistan siyasi rəhbərliyinin həlak olmuş insanların acıları üzərində siyasi oyun quraraq öz işğal siyasətini daha da möhkəmlətməyə çalışması AŞPA nümayəndə heyətlərinin diqqətinə çatdırılıb.

İclasda Ermənistan nümayəndə heyətindən də deputatın olmasına və moderator tərəfindən Ermənistana cavab haqqı verilməsinə baxmayaraq, Tatevik Hayrapetyan faktlar qarşısında susmağa məcbur olub.

## "Vətəndaşların rahatlığının, məmnunluğunun təmin edilməsi islahatlar kursunun əsas məqsədidir"



"Ölkəmizdə dövlət idarəçiliyinin şəffaflaşdırılması, operativliyinin və səmərəliliyinin yüksəldilməsi, vətəndaş məmnunluğunun artırılması möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi islahatlar kursunun əsas mahiyyətini təşkil edir. Bu gün Azərbaycan dövlət xidmətlərinin göstərilməsi üzrə qabaqcıl modelləri dünyaya təqdim edir". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Bu xidmətlərin göstərilməsinə sayəsində dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı məsafə qısaldılıb, ünsiyyət şəffaflaşdırılıb. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət", ABAD, DOST kimi layihələr idarəetmə sistemində təkmilləşmənin, şəffaflığın qorunmasının aydın mənzərəsini yaradır. Bu sıraya dövlətimizin başçısı İlham Əliyevin Fərmanı əsasında Azərbaycan İnvestisiya Holdinqinin yaradılması da daxildir.

Baş redaktor bildirib ki, ölkəmizin ötən il BMT-nin Dövlət Xidmətləri Forumuna ev sahibliyi etməsi bu sahədə yenilikləri ilə dünyanın diqqətində olmasının təsdiqi kimi dəyərləndirildi. Çünki belə bir tədbirin keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsi idi. Forumda Azərbaycan təcrübəsi bütün dünyaya nümunə kimi göstərildi. Bu fikir xüsusi qeyd olundu ki, Azərbaycanın inkişaf modelinin öyrənilməsi və tətbiqi vacibdir. Nəzərə alsaq ki, bu gün dünya, o cümlədən Azərbaycan COVID-19-la mübarizə tədbirlərini gücləndirir, belə bir zamanda mövcud, həmçinin postpandemiya dövrü üçün yaranacaq çətinlikləri aradan qaldırmaq məqsədilə iqtisadiyyatın yeni inkişaf strategiyası üzərində işlər aparılmasına, tanınmış beynəlxalq mütəxəssislərlə, alimlərlə fikir mübadiləsinə, dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadın aktuallığı özünü qabarıq şəkildə büruzə verir.

V.Rəhimzadə qeyd edib ki, gələcəyə nikbinliklə baxmağa əsas verən əsas amil bugünkü uğurlarımızdır: "Pandemiya dövrünün çətinliklərinə baxmayaraq Azərbaycan sosial dəstək və məşğulluq tədbirlərinin miqyasını genişləndirir. Ölkəmizdə iqtisadi islahatlar dərinləşdirilir, idarəetmə sistemində təkmilləşmə öz aktuallığını qoruyur və bu islahatlar ümumilikdə hakimiyyətin hər üç qolunu - icra, qanunverici və məhkəmə-hüquq sistemini əhatə edir. Azərbaycanın bu uğurları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da yüksək dəyərləndirilir. Belə ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumları ölkəmizin inkişaf modelini təqdir edir, Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir".

V.Rəhimzadə qeyd edib ki, şəffaflıq yüksək səviyyədə qorunur, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri gücləndirilir: "Müxtəlif vaxtlarda yerli və mərkəzi icra orqanlarının strukturunun, fəaliyyət istiqamətlərinin, prinsiplərinin, vəzifə və öhdəliklərinin dəqiqləşdirilməsi, paralelliyin aradan qaldırılması, qərarların çevik qəbul olunması və vəzifələrin mümkün qədər səmərəli icrası ilə bağlı qanunvericilik təşəbbüsləri irəli sürülüb. Milli Məclis, Prezident Administrasiyası, Nazirlər Kabinetində həyata keçirilən struktur dəyişiklikləri öz müsbət nəticələrini verir. Bu gün dövlət orqanlarının fəaliyyətində müşahidə olunan operativlik, ictimai rəyə, vətəndaşların problemlərinə həssas yanaşma, bürokratik əngəllərin, korrupsiya, rüşvətxorluq və digər neqativ hallara qarşı kəskin mübarizə əhali tərəfindən təqdir olunur".

Baş redaktor Gəncə şəhəri Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğv edilməsi ilə bağlı irəli sürülən təşəbbüsü də idarəçilik sistemində təkmilləşmənin tərkib hissəsi kimi qeyd edərək bildirib ki, bu mühüm addım ölkənin ikinci böyük şəhərində idarəetmənin keyfiyyətinin yüksəldilməsi və vətəndaşların rahatlığının, məmnunluğunun təmin edilməsi məqsədi daşıyır. Nəticə etibarilə idarəetmə sistemində çoxpillelilik, paralellik, təkrarçılıq, bürokratiya, süründürməçilik və digər bu kimi neqativ hallar aradan qaldırılacaq. Yenə də bu və digər struktur islahatlarının həyata keçirilməsində əsas məqsəd vətəndaş məmnunluğunun artırılmasıdır.

# Texnologiyanın inkişafı kitablara marağı üstələyir?

***Bəzən bizlərin səssiz dostları, bəzən tənha olduğumuz zamanlarda bizə yoldaş olan kitablardan danışacağıq bu gün. Kitab oxumaq insana nə qazandırır? Texnologiyanın həyatımızın mərkəzində olduğu bir zamanda kitablara meylin azalması bizdə mənəvi olaraq hansı itkilərin olmasına gətirib çıxarır? Bəs mütaliə? Heç kimə sirr deyil ki, sosial şəbəkələrin həyatımızda çox dərin izlər qoyduğu və zamanımızdan oğurladığı bu əsrdə mütaliənin azalması cəmiyyətimizdə hansı mənfi izlər buraxır? Mövzu barədə paytaxt sakinlərinin də fikrini öyrənməyə çalışdıq. Görək sakinlərimiz kitablar və mütaliə barədə nə düşünürlər? SİA-nın keçirdiyi sorğunu və hazırladığı reportajı təqdim edirik.***



Paytaxt sakini **Dadaşov Əmir** deyir ki, mən hər gün səhər mütaliə edirəm. Daha çox Hüquq Esiklope-



diyasını oxumaqdan zövq alıram. Bundan başqa onlayn şəkildə də kitab oxumağı sevirəm. Düşünürəm ki, təhsil işçiləri mütaliə etmək üçün gəncləri təşviq etməli, maarifləndirməlidirlər.

**Əliyeva Aynur** bildirib ki, cəmiyyətdə, əsasən də gənclər arasında



sosial mediaya marağın artması ilə kitab oxumağa həvəs getdikcə azalır. Bu isə onların kütləşməsinə gətirib çıxara bilər. Kitab oxumaq insana səbrli olmağı, istənilən mövzuda düzgün və səviyyəli şəkildə polemika aparmağı öyrədir. Lakin son zamanlar gənclər arasında müşahidə olunan aqresiyanın səbəbi fikrimcə, onların çox az mütaliə etməsindən irəli gəlir.

**Allahverdiyev Əli**nin fikrincə isə mütaliə etmək Azərbaycan gənci üçün hər şeydən önəmli olmalıdır. Kitab insanın dünyagörüşünü, dil qabiliyyətini artırır. Həmçinin insanın öz fikrini tam şəkildə ifadə etməkdə köməklik göstərir. Düşünürəm ki, həyatımızın mühüm hissəsini kitablar təşkil etməlidir, sosial media yox.

**Cəfərzadə Dilbər** qeyd edib ki, kitab oxuyarkən beynimiz daha çox inkişaf edir və kitab oxuyan insanın nitqi digərlərinə nisbətdə daha yaxşı



olur. Mütaliə edən insan bir çox mövzuda daha ətraflı şəkildə danışa bilir. Lakin bu gün görürük ki, gənclər sosial mediada daha çox vaxt keçirir və bu da onların həyatına öz mənfi təsirini göstərir. Kitab, qəzet oxumaq fikir mübadiləsi etməkdə insana çox kömək edir.

Sakin **İntizar İsmayıl** bildirib ki, 4-5 il əvvələ qədər daha çox mütaliə edir. Hər şeyi internetdən öyrənmək



kimi bir vərdiş etmişik. Düşünürəm ki, indiki gənclər lazımı şəkildə mütaliə etməsə, bu ancaq savadsızlığa və cılızlaşmağa aparacaq. Nə olsun ki, gənclərimiz universitet bitirir? Amma universitet kifayət deyil. Universitet oxumaq savadlı olmaq deyil. Bunun üçün mütaliə mütləq lazımdır.

"Qanun" nəşrlər evinin direktoru **Şahbaz Xuduoğlu** qeyd edib ki,



satdıqları kitablar arasında ən çox Corc Oruell-in əsərləridir: "Tərcümə ədəbiyyatı da həmçinin satılan kitablar arasında çoxluq təşkil edir. Amma demək olar ki, ən çox satılan 10 kitab arasından Corc Oruell 1984 əsəri həmişə olub və bu gün də olmaqda davam edir. Xalid Hüseyninin kitabları, özünü inkişaf, bədən dili, psixoloji, biznes idarəçiliyi kitablarına da çox maraq var. Texnologiyanın inkişafı ilə mütaliənin azalması məsələsinə gəldikdə isə mən bu fikirlə razı deyiləm. Xüsusən Azərbaycanda texnologiyanın inkişafə mütaliənin azalmasına təsir göstərməyib. Əksinə əksinə onlar paralel şəkildə inkişaf edirlər.

Sonda isə əminliklə deyə bilərik ki, maariflənmiş cəmiyyət istənilən halda öz müqəddəratını həll edir və gələcəyini daha sağlam təməllər üzərində qurur. Maariflənməyin əsas yolu isə kitablardan və mütaliədən keçir. İstər bir müəllim kimi öz şagirdlərimizdə, istər yazıçı kimi öz oxucularımızda və ən əsası bir fərd



kimi özümüzdə mütaliə etməyi vərdiş halına gətirməliyik. Sağlam cəmiyyətin təməlləri məhz bununla bağlıdır.

***Aysel Məmmədova***

# Rayonlara gediş-gəlişin bərpası daxili turizmə necə təsir edəcək?

Nazirlər Kabinetinin qərarına əsasən sentyabr ayının 8-dən etibarən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır. Lakin, şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna təşkil edir. Bu halda daxili turizmin də fəaliyyətində müyyən qədər canlanma yaşana bilər, xüsusilə də, qış turizmində. SİA-nın araşdırmasına əsasən, 2019-cu il göstəricilərinə görə Azərbaycanda ümumi 642 mehmanxana və mehmanxana tipli müəssisələr fəaliyyət göstərib. Bu müəssisələrdə nömrələrin sayı 23 min 865, birdəfəlik tutum, yer isə 49 min 980 olub. 2019-cu ilin göstəricilərinə əsasən bu müəssisələrdə 12 min 481 işçi fəaliyyət göstərir. Müəssisələrin əldə etdiyi gəlir 2019-cu il üzrə 450 188,5 manat təşkil edib. Ümumi, 1 milyon 316 min 739 nəfər əcnəbi vətəndaş ölkəyə gəlib.



Ölkəyə gələn əcnəbilərin sayı üzrə ilk 10-luğu aşağıdakı ölkələr təşkil edir:

Rusiya - 136 min 897 nəfər
Türkiyə - 74 min 709 nəfər
İran - 65 min 693 nəfər
Böyük Britaniyada - 49 min 865 nəfər
ABŞ - 29 min 964 nəfər
Çin - 19 min 120 nəfər
Almaniya - 17 min 571 nəfər
Gürcüstan - 14 min 377 nəfər
Ukrayna - 14 min 197
Fransa - 9 min 669 nəfər

İndi isə daxili turizmdən bir qədər məlumat verək. İqtisadi rayonlar üzrə ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışlarının iqtisadi rayonlar üzrə sayı 2019-cu il üzrə 7 min 501, Azərbaycan ərazisində səyahət etmək üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə satılmış turizm yollayışlarının iqtisadi rayonlar üzrə sayı 2019-cu il üzrə 11 min 469-dur.

Satılmış turizm yollayışlarının iqtisadi rayonlar üzrə dəyəri 78 132,2 manat, ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışlarının iqtisadi rayonlar üzrə dəyəri min manatla 7 071,8 təşkil edir. Azərbaycan ərazisində səyahət etmək üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə satılmış turizm yollayışlarının iqtisadi rayonlar üzrə dəyəri min manatla 20 289,0 təşkil edir.

Səyahət agentlikləri və turoperatorların iqtisadi rayonlar üzrə əldə etdiyi ümumi gəlir isə 2019-cu il üzrə min manatla 63 363,8 təşkil edib.

Pandemiya ilə əlaqədar ölkələrarası və Azərbaycanın digər ölkələrlə gediş-gəliş yolları qapansa da daxili turizmin fəaliyyəti istisna təşkil etmədi.

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi yoluxucu xəstəliklərdən qorunmaq üçün otellərdə və turizm müəssisələrində bir sıra tövsiyyələrə diqqət yetirilməsinin vacib olduğunu vurğulayır. Bu tövsiyyələrə aşağıdakılar aiddir:

- Səthlər mexaniki təmizlənib durulandıqdan sonra dezinfeksiya edilməli;
- Qablar və süfrələr yuyucu maşınlarda yüksək tempraturda yuyulmalı;
- Qablaşdırma vasitələri asanlıqla təmizlənib, dezinfeksiya ediləbilmə qabiliyyətinə malik olmalı;
- Süfrələr (masa örtükləri) yuyucu vasitələrlə və qaynadılmaqla dezinfeksiya edilməli;

Məsələ ilə bağlı SİA-ya açıqlamasında iqtisadçı Natiq Cəfərli bildirib ki, turizm mövsümü bu il demək olar ki, itirilmiş bir mövsüm oldu, xarici turizmin bu il ərzində açılması və ya bərpa olunması mümkün görünmür, ona görə də, ilin sonuna qədər qalan bu az müddətdə rayonlara gediş-gəlişlərin bərpa olunması daxili turizmdə maliyyə vəziyyətinə müsbət təsir göstərə bilər:

"Təbii ki, bu müəssisələrdə təhlükəsizlik qaydalarına, infeksiyadan qorunma tələblərinə ciddi şəkildə əməl olunmalıdır. Müəyyən qaydalar artıq hazırlanıb turizm obyektlərinə göndərilib. Artıq, dezinfeksiya ilə bağlı, sosial məsafə ilə bağlı, işçilərin davranış qaydaları ilə bağlı və nömrələrin normal vəziyyətdə saxlanılması ilə bağlı qaydalar mövcuddur, sadecə həmin qaydalara əməl etmək lazımdır.

Vətəndaşlar bu məsələdə şüurlu şəkildə davranmalıdırlar. Rayonlara turist kimi yollanan vətəndaşlar müəyyən qaydalara əməl etməklə öz istirahətlərini təşkil edə bilərlər. Doğrudur, bunun daxili turizmdə böyük bir canlanma yaradacağını düşünmürəm, çünki, artıq yay mövsümü bitir. Lakin, sentyabr ayının sonu, oktyabr ayının ortalarına qədər müəyyən aktivlik ola bilər. Bundan başqa əhalinin alıcılıq qabiliyyətində də müəyyən düşmə yaşanır. Bu alıcılıq qabiliyyətinin azalması da daxili turizmə mənfi təsir edən amillərdən birinə çevrilə bilər".

***Nigar Məmmədova***

# "Dəyər ver"in növbəti layihəsi Şuşaya həsr olunub

"Dəyər ver" komandası Azərbaycanın dilbər guşəsi olan Şuşa haqqında layihəyə imza atıb. Böyük şairə, xan qızı Xurşudbanu Natəvana həsr edilən layihə Şuşanın gözəlliyindən bəhs edir.SİA-nın verdiyi məlumata görə, üç dildə (Azərbaycan, rus və ingilis) təqdim olunan mahnını gənc müğənni Rilaya ifa edib. "Şuşa"nın musiqisi Natalya Qonçarovaya, sözləri Zəhra Bədəlbəyliyə məxsusdur. Natiq Muxtarovun rejissorluğu ilə ərsəyə gələn layihənin koordinatoru Zaur Darabzadədir. "Dəyər ver"in növbəti layihəsi "Azərİpək" MMC-nin dəstəyi ilə həyata keçirilib.



# Azərbaycan-Türkiyə qardaşlığı əbədidir!

## Türkiyənin Prezident Administrasiyası "Bir millət, iki dövlət" adlı sənədli film hazırlayıb

***Türkiyənin Prezident Administrasiyası Azərbaycan-Türkiyə qardaşlığı və Tovuz hadisələri barədə "Bir millət, iki dövlət" adlı sənədli film hazırlayıb. AZƏRTAC xəbər verir ki, filmdə Azərbaycan və Türkiyə prezidentlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çıxışları, işğalçı Ermənistanın iyulun 12-də Tovuz istiqamətində törətdiyi genişmiqyaslı təxribatdan sonra rayondan görüntülər, bir sıra rəsmi şəxslərin və mülki vətəndaşların fikirləri yer alıb.***













Reportajda qeyd olunub ki, Ermənistanın atəşkəsi pozduğu cümə axşamı günü Azərbaycan ilə Ermənistan arasında gərginlik yenidən artdı. Dağlıq Qarabağ bölgəsinin şimalındakı artilleriya bölmələrinin atəşləri və pilotsuz uçuş aparatlarının həmləri bu vaxtadək ən güclü hücum olaraq dəyərləndirilir. Ermənistanın ağır artilleriya vasitələrindən açdıqları atəş nəticəsində Tovuz rayonundakı bir qəsəbədə bir çox ev məhv edilib.

Müdafiə Nazirliyinin Beynəlxalq hərbi əməkdaşlıq idarəsinin rəisi, general-mayor Hüseyn Mahmudov bildirib ki, Tovuz rayonu Azərbaycan üçün strateji cəhətdən çox əhəmiyyətlidir. Çünki bura yüksəklikdir və mövqelərimiz burada yerləşdirilib. Düşmən ətrafdakı bütün kəndləri təzyiq altında saxlamaq üçün buranı ələ keçirmək istədi. Bu yüksəklikdən bölgədəki müdafiəmizin dərinliklərinə başqa bir hücum başlada bilərdilər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev reportajda Ermənistanın hücumlara Tovuz rayonundan başlamasının səbəblərini açıqlayıb. Hikmət Hacıyev bildirib ki, ermənilərin bəzi strateji hədəfləri var idi, ancaq buna nail ola bilmədilər. İlk hədəfləri Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına, Dağlıq Qarabağ probleminə yönələn diqqəti yayındırmaq idi. İkincisi, Azərbaycanın şərq-qərb istiqamətində strateji kommunikasiya xətlərinə təhdid yaratmağa çalışırdılar.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Elnur Əliyev qeyd edib ki, əgər Azərbaycanın xəritəsinə baxsanız, bu bölgənin yalnız Azərbaycan üçün deyil, daha geniş region üçün çox önəmli olduğunu anlayacaqsınız. Azərbaycan bölgədə strateji layihələr həyata keçirib və bunların onurğa sütunu olan boru kəmərləri, xüsusilə neft və qaz boru kəmərlərinin hamısı Azərbaycan və Ermənistan sərhədinə çox yaxın bir bölgədən keçir.

Azərbaycanın Tovuz rayonundan olan "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu doğma kəndinin də bombalandığını vurğulayaraq bildirib: "Kəndimiz Ermənistan ilə sərhədboyu ərazidə yerləşdiyi üçün otuz ildən çoxdur atəş altındadır. İndiyə qədər kəndimizdən 30 mülki şəxs, o cümlədən müəllimlər, kəndlilər həlak olub. Evlərə bomba düşməsi nəticəsində şəhid olanlar var".

Tovuz hadisələri zamanı öldürülən sakinin qızı Zərnişan Gözəlova bildirib ki, iyulun 12-də ermənilər tərəfindən atəşkəs pozuldu. İyulun 14-də səhər evimizə ermənilər tərəfindən atılan mərmi düşdü və evimizdə partlayış oldu. Nəticədə atam həlak oldu. Atam mülki şəxs idi, hərbçi deyildi.

General-mayor Hüseyn Mahmudov vurğulayıb ki, iyulun 12-dən etibarən Tovuz rayonunda baş verən bu hadisənin ilk anından etibarən Türkiyənin böyük dəstəyini hiss etdik.

Süjetdə Prezident İlham Əliyevin "Bizi ilk dəstəkləyən və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermişdir" sözləri təqdim olunub.

Həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Türkiyə qədim dostluq bağları və qardaşlıq münasibətləri olan Azərbaycanın haqqına, hüququna, torpaqlarına qarşı yönəlmiş hər bir hücumun qarşısında yer almaqda əsla tərəddüd etməyəcək" fikirləri yer alıb.

Rauf Arifoğlu: "Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğanın ermənilər üçün çox sərt və açıq çıxışı oldu. Bunun ardınca isə ordunun Azərbaycana gəlişi, "Türk şahinlərinin Azərbaycan səmasında qalxması önəmli bir hadisə idi. Bu təlimlər elə bir kritik məqama rast gəldi ki, Azərbaycan xalqının, xüsusən bölgədə yaşayan insanların ürəklərinə sanki sərin su səpdi".

Süjetdə Azərbaycan və Türkiyə ordularının möhtəşəm birgə hərbi təlimlərindən görüntülər də təqdim olunub.

General-mayor Hüseyn Mahmudov deyib ki, Azərbaycanın təhlükəsizliyi baxımından Türkiyənin önəmini qeyd etməmək qeyri-mümkündür. Türkiyə bu məsələdə əvəzolunmaz rol oynayır və bu, bizə güc və ərazilərimizi zəbt etməyə çalışan düşmənin cəhdlərinə qarşı döyüşmək cəsarəti verir. Eyni zamanda, əməliyyat keçirmək və işğal altındakı torpaqlarımızı azad etməyə hazır olmaq üçün bizə son dərəcə cəsarət verir.

Birgə hərbi təlimlərin önəmini vurğulayan Hikmət Hacıyev bildirib ki, Türkiyə və Azərbaycanın birgə hərbi təlimləri simvolik olaraq emosional və praktiki hissədən ibarətdir. 1918-ci ildə türk əsgərləri qardaşlarına dəstək olmaq üçün Azərbaycana gəldi. Türkiyə üçün çətin bir dövr idi, Birinci Dünya müharibəsi davam edirdi. Buna baxmayaraq, türk əsgərləri erməni daşnaklarının və bolşeviklərin törətdikləri soyqırımını dayandırmaq məqsədilə Azərbaycana qardaş dəstəyi göstərmək üçün gəldilər.

Rauf Arifoğlu bildirib ki, 1918-ci ildə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycana gəldi. O zaman da rus və erməni silahlı dəstələri Bakıda qətliam törətmiş, 30 min Azərbaycan türkünü qətlə yetirmişdilər. Türklər gəlib əhalini xilas etdilər, Nuru Paşanın ordusu 1100 şəhid verdi.

Hikmət Hacıyev bildirib ki, 100 il sonra - 2018-ci ildə iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan, Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələri Bakının mərkəzində birlikdə addımladılar.

Süjetdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın aşağıdakı fikirləri təqdim olunub: "Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir. Biz böyük şair mərhum Bəxtiyar Vahabzadənin gözəl ifadəsi ilə,

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə.

Prezident İlham Əliyev: Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulamaq istəyirəm. Bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

Hikmət Hacıyev qeyd edib ki, Türkiyə və Azərbaycan əməkdaşlığı, tərəfdaşlığı və qardaşlığı hər şeydən əvvəl iki ölkə arasındakı etnik qohumluq münasibətlərindən irəli gəlir və buna əsaslanaraq ölkələrimiz hər sahədə strateji və genişmiqyaslı əməkdaşlıq edir. Hər şeydən əvvəl bu əməkdaşlıq Azərbaycan və Türkiyə xalqlarının maraqlarına xidmət edir.

Elnur Əliyev: Azərbaycan xalqı üçün Türkiyə ilə hər cür əməkdaşlıq sanki ölkə daxilində bir əməkdaşlıq etmək kimi təbii haldır.

Hikmət Hacıyev: Azərbaycan-Türkiyə əməkdaşlığı regionda sülhə, sabitliyə və inkişafa geniş miqyasda töhfə verilməkdədir. Nümunə olaraq deyə bilərəm ki, TANAP və TAP layihələri Xəzər dənizi, Cənubi Qafqaz, Qara dəniz regionu, Gürcüstan, Balkan ölkələrini, Avropa ölkələrini birləşdirir və nəhayət Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə verir. Türkiyə-Azərbaycan əməkdaşlığı neft və qaz boru kəmərlərini ipək yolunun şərqi ilə qərbini birləşdirən marşrutu əhatə edir, həmçinin Orta Asiya və Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə əlaqələndirən bir yolu özündə

# Azərbaycan-Türkiyə qardaşlığı əbədidir!

## *Türkiyənin Prezident Administrasiyası "Bir millət, iki dövlət" adlı sənədli film hazırlayıb*




ehtiva edir.

Elnur Əliyev: Azərbaycan ilə Türkiyənin əməkdaşlığı yalnız Qafqaz bölgəsi üçün deyil, daha geniş coğrafi ərazi üçün həyata keçirilən bütün strateji layihələri həyata keçirməyə imkan yaradır.

Hikmət Hacıyev: Azərbaycan və Türkiyə ən yaxşı rifahın paylaşılan rifah olduğuna inanır. Bütün bu amillər regional sülhə və təhlükəsizliyə töhfə verməkdədir.

Burada ortaya bir sual çıxır: Ermənistan bu proseslərin bir hissəsi ola bilərmi? Cavab: "bəli". Ancaq Ermənistan işğalçılıq siyasətinə son verməlidir, qonşuları ilə, xüsusilə də Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmalıdır.

Rəcəb Tayyib Ərdoğan: Dağlıq Qarabağın işğalından bəri bu bölgədə davam edən gərginliyin Ermənistanın düşünülmüş və ardıcıl şəkildə hücumları səbəbindən münaqişəyə çevrilməsi ilə bağlı narahatlığımızı bildiririk.

Rauf Arifoğlu: Türkiyənin bütün platformalarda, təkcə Qarabağ məsələsində deyil, bütün məsələlərdə Azərbaycanın yanında olduğunu hər birimiz bilirik və ona görə də xoşbəxtik. Bu, yalnız on milyon olmadığımızı izah edən bir həqiqətdir.

Elnur Əliyev: İki ölkənin liderlərinin çox məşhur və tarixi bir kəlamı var: "Bir millət, iki dövlət". Bu ifadə tarixi həqiqəti, xalqlarımızın mədəniyyətini və tarixini əks etdirir. Əslində, biz bir xalqıq və bu əlaqələr tarix boyunca formalaşaraq bugünkü səviyyəyə gəlib çatıb. Əslində, sərhədin - Türkiyə ilə Azərbaycan arasındakı sərhədin harada olduğunu anlamaq çətindir.

Hikmət Hacıyev: Biz bir millət, iki dövlətik. Bu, hər bir azərbaycanlı üçün çox emosional bir ifadədir və məncə, hər bir Türkiyə vətəndaşı üçün də eynidir. Şüarımıza əsasən gələcəyə yönəlmiş çox geniş perspektivimiz var və bu istiqamətdə irəliləyirik.






















# Beynəlxalq birlik Ermənistanın təxribatlarına son qoyulması üçün konkret addımlar atmalıdır

*Milli Məclisin deputatı Müşfiq Cəfərovun yap.org.az-a müsahibəsi*



***- Müşfiq müəllim, son zamanlar işğalçı Ermənistan təxribatçı hərəkətlərini artırmaqdadır. Sizcə, bu təxribatları törətməklə erməni tərəfi hansı məqsəd güdür?***

- Ümumiyyətlə, Ermənistanın daxili siyasətində vəziyyət çox gərgindir. Son zamanlar Ermənistanda gərgin sosial-iqtisadi, demoqrafik vəziyyət hökm sürür. Ölkənin siyasi sistemi bərbad vəziyyətdədir. Bu durumda Ermənistan rəhbərliyi yarıtmaz siyasətini örtbasdır etmək və xalqın, ictimaiyyətin diqqətini xarici düşmən obrazına yönəltmək üçün müxtəlif provokasiyalara əl atdı.

Ermənilər dəfələrlə Azərbaycana hərbi təcavüz ediblər, türklərə qarşı soyqırımlar törədiblər. Bütün bunlar təsadüfi deyil və ermənilər bu addımları planlı şəkildə həyata keçiriblər. Bunun arxasında türk düşmənçiliyi ilə yanaşı, “Böyük Ermənistan” ideyası da dayanır. Ermənistanın məkrli planlarının əsası budur ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisini və ətraf 7 rayonunu işğal altında saxlayan düşmən dövlət yeni münaqişə zonaları yaratmaq arzusundadır. Məhz bu məqsədlə də təxribata əl atır. Əsas qayə isə Gəncə şəhərini hədəf kimi göstərərək daxildə öz xalqını yeni ərazi iddialarına həvəsləndirməkdir. Bu bəyanatı verən Ermənistan özünü dünyaya faşist dövlət kimi təqdim edir.

Mənfur qonşularımız hər zaman beynəlxalq hüququn prinsip və normalarına, beynəlxalq ictimaiyyətə və demokratiya qanunlarına etinasızlıq göstərərək işğal etdiyi Azərbaycan ərazilərinin azad olunması barədə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının mövcud qətnamələrini icra etməkdən boyun qaçırır. Ermənistan beynəlxalq öhdəlikləri açıq şəkildə pozmaqda davam edir və ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırılması prosesini davam etdirirlər. Azərbaycanın işğal altındakı ərazilərində qurulmuş saxta muxtariyyətin lideri Livandan 150 erməni ailəsinin Dağlıq Qarabağda yerləşdirilməsini təklif edib. Hətta Ermənistanın ictimai radiosunun yaydığı xəbərə görə, artıq Livandakı bir neçə ailə bölgədə yerləşdirilib. Bu qanunsuz məskunlaşma, həmçinin Azərbaycana məxsus olan torpaqlarda aparılan tikinti işləri dayandırılmalı, beynəlxalq normaları pozan düşmən dövlət məsuliyyətə cəlb olunmalıdır.

***- Azərbaycan cəmiyyəti beynəlxalq birliyin, xüsusilə ATƏT-in Minsk qrupunun Ermənistanın təxribatlarına münasibət bildirməsini tələb edir. Bu barədə nə deyə bilərsiniz?***

- Biz gözləyirik ki, ATƏT-in Minsk qrupu Ermənistanın bu seperatçı davranışına qarşı əməli tədbir görsün, eləcə də işğalçı ölkə rəhbərliyindən dövlətimizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə tam hörmət göstərərək BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılmasını tələb edən 4 qətnaməsini qeyri-şərtsiz icra etməsini tələb etsin.

Düşünürəm ki, Nikol Paşinyanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə səfər etməsi, orada döyüş postlarını gəzib bəyanatlar verməsi bir daha onu göstərir ki, Ermənistan hakimiyyəti heç bir sülh danışıqlarına razı deyil. İşğalçı ölkənin hakimiyyəti qanunsuz davranışlarını davam etdirir.

İşğalçı niyyətini açıq aşkar ortaya qoyan Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağda, Azərbaycan torpaqlarında “təntənəli” mərasim keçirib və generalımız Polad Həşimovun da şəhid olduğu Tovuzdakı iyul döyüşlərinin iştirakçılarına müxtəlif medal və ordenlər, kapitan Ruben Samayana isə şəxsən “milli qəhrəman” mükafatı verib. Görünən odur ki, Paşinyan öz sələflərinin və faşist babasının faşizmə olan dəstəyini davam etdirib daha da möhkəmlənməsinə çalışır. Artıq mötəbər beynəlxalq birlik və təşkilatlar Ermənistan dövlətinin işğalçı mövqeyini, terrorizmə olan dəstəyini görməli və ifşa etməlidir.

***- Bu yaxınlarda Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri keçirilib. Ümumiyyətlə, Azərbaycan-Türkiyə münasibətlərində hərbi əməkdaşlıq nə kimi əhəmiyyət kəsb edir?***

- Azərbaycan-Türkiyə əlaqələrində hərbi əməkdaşlıq da mühüm yer tutur. Bilirsiniz ki, hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər

Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib ki, hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var.

İki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini 3 vacib məsələ müəyyənləşdirir. Birincisi, NATO ilə əməkdaşlıq sənədləri. Bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir. İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr, üçüncüsü isə Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır.

İki ölkə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində yeni birgə əməkdaşlığa qədər məsələlər daxildir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır.

Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə məsələsi Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. Belə ki, iki ölkə terrorizmdən əziyyət çəkməklə bu istiqamətdə ayrı-ayrılıqda və birgə mübarizənin bu günü və perspektivlərini həmişə diqqət mərkəzində saxlayır.

# Baş Prokurorluq Bakıda yeni doğulmuş uşağın oğurlanmasını təkzib etdi



Baş Prokurorluq Bakıda xəstəxanadan uşaq oğurlanması ilə bağlı məlumata münasibət bildirib. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində paytaxt sakini Aytən Namazovanın yeni doğulmuş əkiz uşaqlarından birinin “3 nömrəli Şəhər Klinik Xəstəxanası” publik hüquqi şəxsinin həkimləri tərəfindən oğurlanması barədə məlumatlar yayılıb.

Belə ki, Aytən Namazovanın yeni doğulmuş əkiz uşaqlarının birinin qeyd edilən xəstəxananın həkimləri tərəfindən oğurlanması barədə müraciəti üzrə Sabunçu rayon prokurorluğunda araşdırma aparılıb. Araşdırma zamanı müəyyən edilib ki, Aytən Namazovanın hamiləliyi dövründə ultrasəs müayinəsi üçün müraciət etdiyi Sabunçu rayonu 21 saylı şəhər poliklinikasının həkim-sonoqrafı Sevda Nəzərova və həkim sonoqraf Şərqiyyə İbrahimova tərəfindən müayinə vərəqələrində faktiki olaraq bir dölə aid göstəricilərin qeyd olunmasına baxmayaraq, sonuncuların müayinə vərəqələrinin tərtibatına məsuliyyətsiz yanaşmaları nəticəsində dölün sayı qrafasında mexaniki səhvə yol verilərək 2 rəqəmi qeyd edilib.

Aparılmış araşdırma nəticəsində Aytən Namazovanın 7 noyabr 2019-cu il tarixdə müraciət etdiyi 3 saylı ŞKX-da ultrasəs müayinəsi zamanı 6 həftəlik əkiz döllərə hamilə olması, lakin hamiləliyinin sonrakı dövrlərində döllərdən birinin inkşafdan qalması nəticəsində 31 iyul 2020-ci il tarixdə yalnız bir uşaq dünyaya gətirməsi alınmış izahatlar, məhkəmə-tibbi ekspertinin rəyi və digər zəruri sənədlərlə sübuta yetirildiyindən, toplanmış material üzrə cinayət hadisəsi müəyyən olunmadığından 3 sentyabr 2020-ci il tarixdə cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilib. Sabunçu rayon prokurorluğu tərəfindən qeyd edilən həkimlərin intizam məsuliyyətinə cəlb olunmaları məsələsinə baxılması, bu kimi halların qarşısının alınması və gələcəkdə yol verilməməsi məqsədi ilə Bakı şəhər Baş Səhiyyə İdarəsinə təqdimat verilib.

# “Bizim əsas prinsipial mövqeyimiz sülh, tərəfdaşlıq və əməkdaşlıqdır”



“Ümumiyyətlə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi formal xarakter daşımayıb. Dünyanı narahat edən bütün problemlərlə bağlı Azərbaycan məhz həmrəylik istiqamətində çox böyük işlər görüb”. Bunu SİA-ya millət vəkili Asim Mollazadə deyib. Deputatın sözlərinə görə, 2020-ci il mayın 4-də Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının pandemiyaya qarşı videokonfrans formatında dövlət və hökumət başçıları səviyyəsində Zirvə görüşü keçirildi: “Zirvə görüşündə Prezident İlham Əliyev Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının pendemiyaya qarşı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Təklif Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən müdafiə olundu. Bu dəstək Hərəkat üzvlərinin öz dəyərlərinə hörmətinin, çoxtərəfli beynəlxalq əməkdaşlığa, multilateralizmə, qlobal problemlərin yalnız qlobal səylərlə həll oluna biləcəyi düşüncəsinə olan inamının bariz bir nümunəsi idi. Azərbaycan Prezidentinin xüsusi sessiyanın çağırılması təşəbbüsü ümumən dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəkləndi. Bu mənada hesab edirəm ki, Azərbaycan həmrəylik, tərəfdaşlıq üzərində dünyada siyasəti həyata keçirməyə öz təşəbbüslərini irəli sürən bir sıra ölkələrdən, qitələrdən dəstək qazanmaqdadır. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi davam edir. Bilirsiniz ki, Azərbaycan pandemiyadan əziyyət çəkən ölkələrə Asiya, Afrika, Latın Amerikasına öz dəstəyini göstərib. Azərbaycanda Qoşulmama Hərəkatının pandemiyaya qarşı videokonfrans formatında dövlət və hökumət başçıları səviyyəsində Zirvə görüşü keçirildi və bir sıra ölkələrin rəhbərləri ölkəmizin təcrübəsi ilə yaxından tanış oldu, həmrəylik nümayiş etdirdi. Təbii ki, bu fəaliyyət davam etdiriləcək. Çünki, bizim əsas prinsipial mövqeyimiz sülh, tərəfdaşlıq və əməkdaşlıqdır”.

**Ceyhun Rasimoğlu**

# “Qoşulmama Hərəkatı bizə dərdimizi dünya dövlətlərinin diqqətinə çatdırmaq imkanı verir”



“Bəli, Qoşulmama Hərəkatının xeyli üzvü var və qurum BMT-dən sonra ikinci böyük təşkilat sayılır.” Bu sözləri SİA-a verdiyi açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Mərkəzin rəhbərinin sözlərinə görə, Azərbaycanın bu təşkilata, Qoşulmama Hərəkatına üzvülüyü imkan verir ki, öz problemlərimizi, əsas dərdimizi dünya dövlətlərinin diqqətinə çatdıraq.

“Doğrudur, bu o demək deyil ki, bütün bu ölkələr Azərbaycanın əsas problemi olab Dağlıq Qarabağ münaqişəsini ciddi əhəmiyyət verəcəklər, hamı Azərbaycanın ərazi bütövlüyünü həm sözdə, həm də əməldə dəstəkləyəcək. Ona qalsa Azərbaycan bir çox beynəlxalq təşkilatın üzvüdür, amma bir çox sənədlər də kağız üzərində qalıb. Lakin, fakt ondan ibarətdir ki, Azərbaycan bu təşkilatın üzvüdür, Bakıda toplantısı da keçirilib və Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edilir. Yəni bu gün Azərbaycan öz torpaqlarını istənilən yolla azad etməyə qərar versə həmin sənədlərə əsaslanacaq. Heç bir dövlət buna qarşı çıxa bilməyəcək. Həmçinin Qoşulmama Hərəkatının üzvləri də Azərbaycanın ərazi bütövlüyünə dəstək veriblərsə, həmin sənəd də onlara xatırladılacaq.

Digər tərəfdən Azərbaycan həm ikitərəfli əlaqələrə malikdir bu dövlətlərlə, həm də təşkilat çərçivəsində müəyyən təmaslar həyata keçirir. Azərbaycanın bu təşkilata bir müddət sədrliyi də müxtəlif təşəbbüslər irəli sürməsinə imkan yaradır. Üstəlik də dövlətlərlə iqtisadi əməkdaşlığı gücləndirmək, ortaq layihələr həyata keçirmək kimi də təşəbbüslər ortaya atılıb həyata keçirilər bilər”, deyə Elxan Şahinoğlu bildirib.

**İnam Hacıyev**

**Atalar yaxşı deyib: "Qozbeli qəbir düzəldər". Amma görünür Ermənistanın küçə "demokratı" faşist xislətli Nikol Paşinyanı heç qəbir də düzəldə bilməyəcək. İlk gündən hakimiyyətə yalan. Quldur, oğru niyyətilə gələn Paşinyan bu gün də bu xislətindən əl çəkmir. Görkəmli fransız yazıçısı Aleksandr Düma ermənilərin həmişə fırıldaqçı, dələduz olduğunu deyib: "Ermənilər həmişə erməni dinindən fərqli dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə onlar öz fikirlərini, hisslərini və məramlarını gizlədən vücudlara, habelə dələduzlara və fırıldaqçılara çevrilmişlər". Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Ermənistanda diktatura rejimi formalaşıb: "Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik".**

# Paşinyan Ermənistanı oğru qaydaları ilə idarə edir...

## *Yaxud hakimiyyətə qarşı narazılıqlar pik nöqtəsində*



Ölkə Prezidenti televiyiya kanallarına müsahibəsi zamanı vurğulayıb ki, artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Dövlət başçısı, həmçinin bildirib ki, əgər 20 il ərzində bir ölkəyə rüşvətxorlar, cinayətkarlar, oğrular rəhbərlik edibsə, bu ölkə cinayətkarlar, oğrular, rüşvətxorlar ölkəsidir. Başqa cür ola bilməz: "Bir də ki, indiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Artıq onların dediyi kimi, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa ediblər".

"İndi baxın görün son iki il ərzində nələr baş verir. Belə olan halda mənzərə tam üzə çıxacaq. Son iki il ərzində Ermənistanda diktatura rejimi formalaşıb. Xunta getdi, diktatura gəldi. Ermənistanda insan haqları kobudcasına pozulur, jurnalistlər həbs olunur. Bir jurnalist həbsxanada aclıq elan etmiş və aclıqdan vəfat etmişdir. Ermənistanda konstitusiya kobudcasına pozulur və konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumla edilə bilərdi. Siyasi opponentlər təqib edilir, siyasi partiya rəhbərlərinin deputat toxunulmazlığı götürülür, onlar hədələnir, onların qohumlarına qarşı cinayət işləri açılır, hakimiyyət zəbt edilib, hakimiyyət bölgüsü tamamilə mövcud deyil. Baş nazir həm hakimdir, həm prokurordur, həm icra orqanının rəhbəridir, həm də sanki parlamentin sədridir. Qanunvericilik, məhkəmə-hüquq və idarəetmə mexanizmi bir adamın əlində cəmlənib və Ermənistanda diktatura artıq formalaşıbdır", - Prezident qeyd edib.

### Erməni xalqı Paşinyanı hakimiyyətə gətirməklə "oşibka" etdiyini, nəhayət ki, anlayır

Anlayır ki, bu iki il əvvəl Ermənistanda hakimiyyəti ələ keçirmiş baş nazir Nikol Paşinyan ötən müddət ərzində nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir. Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalır, ölkə iqtisadiyyatını irəli aparmaq üçün elə bir təsirli tədbir görülmür. Paşinyan indiki halda boşboğazlıqdan o tərəfə keçmir, xalq isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalır.

Ermənistanda pandemiya fonunda hökm sürən ağır iqtisadi vəziyyət hər keçən gün narazılıqları artırır. Etirazçılar bəyan edirlər ki, "məxməri inqilab"da Paşinyanla "çiyin-çiyinə savaşıblar" və indi Paşinyan onların problemini həll etməlidir. Aksiyaçıların fikrincə, bu, təkcə iqtisadi yox, həm də etimad məsələsidir. Etirazçılar deyirlər ki, ətraf kəndlərdəki yüzlərlə ailə çörəksiz qalıb. Ərazidəki Amulsar qızıl mədənində çalışanlar sabit əməkhaqqına ümid edərək kredit götürüblər və indi çıxılmaz vəziyyətə düşüblər. Ermənistandakı ekoloji təşkilatlar isə xəbərdarlıq ediblər ki, Amulsar dağ mədəninin istismarı ciddi və qarşısıalınmaz ekoloji fəsadlara gətirib çıxara bilər. Bu səbəbdən də Cermuk şəhəri və ona yaxın kəndlərin sakinləri qeyd olunan məqamla bağlı vaxtaşırı aksiya keçirərək şəhərdən 13 kilometr aralıda yerləşən Amulsar dağ mədəninə gedən bütün yolları bağlayırlar.

"4rd.am" portalı isə yazır ki, xalq artıq yeni hakimiyyət tərəfindən müəyyənləşdirilən oğru qaydaları ilə yaşamağa öyrəşib. Bu perspektivlə razılaşmayanlar Ermənistanı tərk edirlər. Kimlərsə Rusiyaya, kimlərsə ABŞ-a, kimlərsə Avropaya üz tuturlar. Belələrinin sayı artıq yüz minlərlə ölçülür. Amma bu, Paşinyan hakimiyyətini narahat etmir. Onlar hesab edirlər ki, ölkədə nə qədər az sayda əhali yaşasa, problem də bir o qədər az olar və hakimiyyətlərinə az təhlükə yaranar.

Bildirilir ki, Ermənistan kimi ölkədə yaşamaq istəyirsənsə, kriminal sistem tərəfindən yaradılan qaydalara uyğunlaşmalısan: "Ermənistanda qarnı tox və yaxşı həyat yaşamaq üçün kriminal keçmişi və oğru dünyası ilə əlaqəsi olanlar tərəfindən müəyyən edilən qaydalara uyğun yaşamalısan. Ermənistanda insanlar qanunlarla deyil, xüsusi şəkildə müəyyənləşdirilən qaydalarla yaşayır".

Beləliklə, Paşinyan arzuolunmaz vəziyyətə düşüb. Nə ölkənin problemlərini həll edə bilir, nə də normal idarəçiliklə məşğul ola bilir. Buna görə onun və başçılıq etdiyi hökumətin taleyi böyük sual altındadır.

### Paşinyanın bəyanatları nəyə xidmət edir?

Yenə də çətnə düşən kimi sərsəm bəyanatlarla çıxış etməyə əl atan Paşinyan elə zənn edir ki, erməni xalqını boş, mənasız çıxışları ilə inandıra biləcəkvə bununla da zəif hakimiyyətini qoruyub saxlayacaq. Politoloqlar bildirir ki, sosial problemlər üzrəində hakimiyyətə gələn Paşinyan və onun komandası Qarabağ probleminin heç mahiyyətini belə anlamır və bu problemləri həll etməyə qadir deyil. Ona görə də Qarabağ məsələsi ilə bağlı yersiz bəyanatlar verir.

Rusiya siyasi araşdırmalar institutunun rəhbəri Sergey Markov ATV.az-a açıqlamasında bildirib ki, Paşinyanın açıqlamaları danışıqlar prosesini yubatmaq cəhdidir və o bu yolla zəif hakimiyyətini saxlamağa çalışır. Yəni hakimiyyət bölgüsünü aparmamaq, birbaşa təmaslara keçməmək onun məqsədli şəkildə atdığı addımlardır: "Paşinyan bilir ki, hakimiyyəti o qədər də möhkəm deyil və ona görə də Dağlıq Qarabağla bağlı vətənpərvər hisslərə arxalanmağa çalışır. Buna görə də ilk olaraq Qarabağa səfər etdi, gurultulu bəyanatlar verdi. Düşünürəm ki, Rusiya prezidenti Vladimir Putinlə futbol üzrə dünya çempionatı ərəfəsində gözlənilən görüşü zamanı Paşinyan özü Qarabağ məsələsini gündəmə gətirəcək, çünki Rusiya tərəfindən dəstək gözləyir. Amma ona bu dəstəyin veriləcəyini düşünmürəm. Çünki Rusiya onun hansı mövqeyə xidmət etdiyindən xəbərdardır-sitatın sonu.

### İşğalçı ölkədə hakimiyyət həqiqi işlə yox, avantüra ilə məşğuldur

Məhz bu gün Paşinyan nə Ermənistana nəzarət edə bilir, nə də Qarabağdakı orduya. Və bu gün Ermənistan ordusunda şəxsi heyətin tam komplektləşdirilməsi ilə bağlı ciddi problemlər mövcuddur. Artıq ermənilər bu problemi gizlədə bilmirlər. Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə minlərlə ermənin ordu sıralarında xidmətdən boyun qaçırması dayanır və bu proses indi də davam edir. Məhz bu səbəbdən də Paşinyan sıravi əsgər vəzifələrinə muzdlu döyüşçüləri cəlb etməklə elə zənn edir ki, bu problemi həll edə bilər.

Hüquq müdafiəçisi Nina Karapetyants əmindir ki, Ermənistana Silahlı Qüvvələrdən əlavə daha bir silahlı struktur lazım deyil: "Ən vacibi odur ki, könüllülərin hansısa məqamda əllərində silah İrəvanın küçələrində, şəhərin mərkəzində hansısa hərəkətlərə qatılmayacağına zəmanət verilmir. Fikrimcə, nizami ordusu olan ölkəyə qeyri-müəyyən statuslu əlavə hərbi birləşmələr lazım deyil".

Hüquq müdafiəçisi yaxın keçmişdə oxşar struktur olan "Yerkrap" könüllülər birliyinin hərəkətlərini yada salır: "Bizdə belə təcrübə olub, müəyyən hadisələr zamanı insanlar bu və ya digər tərəfi dəstəkləyə bilər, hakimiyyət, yaxud hansısa qüvvələr onlardan istifadə edə bilər". Erməni mediası da yazır ki, könüllü dəstələr hansısa qrupun marağı üçün gücdən istifadə edəcək və bu da ölkədə xaosu daha da dərinləşdirəcək: "Yerkrap" bunun ən əyani təsdiqidir. "Yerkrap" könüllülər birliyi 1993-cü ildə yaradılıb və Qarabağ müharibəsi veteranlarını birləşdirib. 1999-cu ildən birliyə general Manvel Qriqoriyan rəhbərlik edirdi. O, 2018-ci ildə antikorrupsiya istintaqı çərçivəsində saxlanıb və böyük soyğunçuluq cinayətləri həyata keçirdiyi üzə çıxıb. Hazırda birliyin rəhbəri Sasun Mikaelyandır. Bu birliyin idarə heyətinin ayrı-ayrı üzvlərinin vaxtilə Ermənistanda siyasi proseslərə müdaxilə etməsi məlumdur.

Ekspertlərin sözlərinə görə, düşmən könüllülərin ümidinə qalsa da, istədiyi nəticəni əldə etməyəcəyini özü də bilir...belə ki, 1990-cı illərin əvvəllərindən fərqli olaraq, Azərbaycanın güclü bir orduya malik olması fonunda ekspertlər hesab edir ki, Ermənistanda könüllülər ordusuna yazılanların sayı az olacaq. Digər tərəfdən, 2016-cı ilin aprelində belə könüllülərin ordumuz tərəfindən necə darmadağın edilməsi də ermənilərin yadından çıxmayıb. Bu səbəbdəndir ki, ötən ay baş tutan Tovuz döyüşlərindən sonra erməni ordusuna heç bir könüllü axını olmadı. Halbuki, ehtiyac olmadığı halda Azərbaycanda belə insanların sayı yüz minlərlə ölçülürdü. Belə vəziyyətdə məlumdur ki, Ermənistan rəhbərliyi könüllü silahlı qüvvələr toplamaqla da əsgəri problemlərinin, o cümlədən hərbçi çatışmazlığı kimi kritik bir məsələnin həllinə nail ola bilməyəcək. Əksinə, Dağlıq Qarabağ münaqişəsinin həlli hərb müstəvisinə keçəcəyi təqdirdə Ermənistanın istər nizami ordusu, istərsə də könüllüləri qısa zamanda Silahlı Qüvvələrimiz tərəfindən darmadağın ediləcək. Digər tərəfdən, yuxarıda qeyd edildiyi kimi, könüllülər məsələsinin yenidən gündəmə gəlməsi erməni ordusunda hərbçi çatışmazlığının daha bir təsdiqidir. Miqrasiya, demoqrafiya problemini həll edə bilməyən Ermənistan ordusunun perspektivdə əsgər, zabit qıtlığı problemi ilə daha kəskin şəkildə üzləşəcəyi qaçılmaz sayılır və bunu ölkə rəhbərliyi də yaxşı sezir. Elə təkcə rəsmi rəqəmlərə görə, Ermənistan əhalisi son 30 il ərzində 800 min nəfər azalıb. Reallıqda isə bu rəqəmin ən azı 2 dəfə çox olduğu, ölkədə yaşayan real əhalinin sayının heç 2 milyona belə çatmadığı da məlum həqiqətdir. Yenə rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır. Özü də Ermənistanda qalan kişilərin əksəriyyəti hərbi xidmət üçün yaş və digər parametrlər baxımından yararlı deyil. Bu səbəbdən məsələnin həlli üçün könüllülər birliyi layihəsi ortaya atılıb. Ancaq bu da ermənilər üçün çıxış yolu deyil və Qarabağ probleminin hərbi həlli zamanı düşmən bir daha buna əmin olacaq.

### "Könüllülər ordusu" işğalçı Ermənistanı xilas edə biləcəkmi?..

Həmişə olduğu kimi, bu gün də işğalçı Ermənistanda ağır demoqrafik vəziyyətə görə hərbiçi çatışmazlığı getdikcə kəskin xarakter alır. Yaranmış vəziyyətdə məsələnin həlli üçün işğalçı ölkədə "Müdafiə haqqında" qanuna dəyişikliklər ictimai müzakirəyə çıxarılıb. Dəyişikliklərə əsasən, ölkədə hərbi "könüllü dəstələr"in yaradılması nəzərdə tutulur.

Erməni mediası da yazır ki, könüllü dəstələr hansısa qrupun marağı üçün gücdən istifadə edəcək və bu da ölkədəki xaosu daha da dərinləşdirəcək. "Yerkrap" bunun ən əyani təsdiqidir. "Yerkrap" könüllülər birliyi 1993-cü ildə yaradılıb və Qarabağ müharibəsi veteranlarını birləşdirib. 1999-cu ildən birliyə general Manvel Qriqoriyan rəhbərlik edirdi. O, 2018-ci ildə antikorrupsiya istintaqı çərçivəsində saxlanıb və generalın böyük soyğunçuluq cinayətləri həyata keçirdiyi üzə çıxıb. Hazırda birliyin rəhbəri Sasun Mikaelyandır. Bu birliyin idarə heyətinin ayrı-ayrı üzvlərinin vaxtilə Ermənistanda siyasi proseslərə müdaxilə etməsi məlumdur. Belə çıxır ki, işğalçı ölkə artıq könüllülərin ümidinə qalsa da, istədiyi nəticəni əldə etməyəcəyini özü də bilir.

1990-cı illərin əvvəllərindən fərqli olaraq, Azərbaycanın güclü bir orduya malik olması fonunda ekspertlər hesab edirlər ki, Ermənistanda könüllülər ordusuna yazılanların sayı az olacaq. Digər tərəfdən, Ermənistan ordusu zəifdir və buna görə də könüllülərin imkanlarından istifadə edilməsi məsələsi gündəliyə çıxarılır. 2016-cı ilin aprelində belə könüllülərin ordumuz tərəfindən necə darmadağın edilməsi də ermənilərin yadından çıxmayıb. Bu səbəbdəndir ki, ötən ay baş verən Tovuz döyüşlərindən sonra erməni ordusuna heç bir könüllü axını olmadı. Halbuki, ehtiyac olmadığı halda Azərbaycanda belə insanların sayı yüz minlərlə ölçülürdü.

Lakin bu gün Ermənistan həmişə olduğu kimi, demoqrafik problem yaşayır və ön cəbhəyə çıxarmağa resursu yoxdur. Ekspertlərin sözlərinə görə, belə vəziyyətdə məlumdur ki, Ermənistan rəhbərliyi könüllü silahlı qüvvələr toplamaqla əsgər problemlərinin, o cümlədən hərbçi çatışmazlığı kimi kritik bir məsələnin həllinə nail ola bilməyəcək. Əksinə, Dağlıq Qarabağ münaqişəsinin həlli hərb müstəvisinə keçəcəyi təqdirdə Ermənistanın istər nizami ordusu, istərsə də könüllüləri qısa zamanda Silahlı Qüvvələrimiz tərəfindən darmadağın ediləcək. Rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini isə qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır. Özü də Ermənistanda qalan kişilərin əksəriyyəti hərbi xidmət üçün yaş və digər parametrlər baxımından yararlı deyil.

Bəs Paşinyanın düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu Azərbaycan Prezidenti İlham Əliyev dəflərlə çıxışlarında bildirir ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki rəhbərliyin səhvlərini təkrar etməməlidir, konstruktiv danışıqlar aparmalıdır, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq. Sözün bütün mənalarında... "könüllülər" ordusu olan halda belə... Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bu faktın gerçəkliyi göz önündədir...

**A.SƏMƏDOVA**

# "Politik": "Paşinyanı uzaqlaşdırıb, Ermənistanı soroslaşdıracaqlar"

***"Ən azı yaxın 15 illiklər göstərdi ki, rəngli inqilabların baş verdiyi bütün ölkələrdə hakimiyyətə, ya da administrativ strukturlara yiyələnən qərbyönümlü sorosçular, ilk növbədə, hüquq-mühafizə və güc strukturlarında, imkan olanda isə xüsusi xidmət orqanlarında öz nəzarətlərini qurmağa çalışırlar". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Politik" portalı yazır.***

**"Sorosçular kifayət qədər uğurlu şəkildə hüquq-mühafizə və güc sistemlərində yerlərini möhkəmləndiriblər"**



Portalın qeyd etdiyinə görə, Ukraynada, Gürcüstanda baş vermiş rəngli inqilablardan sonra hüquq-mühafizə və güc sistemlərində miqyaslı islahatlar adı altında işlərə başlanıldı, hətta o zamanlardan başlayaraq indiyə qədər lüstrasiya çağırışlarına çağırışlar edilməkdədir. SİTAT: "Ermənistan da mövcud situasiyada istisna deyil və Nikol Paşinyanın tərəfdarları olan erməni sorosçular da kifayət qədər uğurlu şəkildə hüquq-mühafizə və güc sistemlərində yerlərini möhkəmləndiriblər".

## "Artıq təsəvvür etmək olar ki, bu sistem siyasi, iqtisadi və ictimai həyatda hansı rıçaqlara malik ola bilər"

Nəşr yazır ki, Ermənistan respublikasının təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın əli dövlət təhlükəsizliyi ilə əlaqəli olan və hərbdən başlayaraq, iqtisadi, ya da demoqrafik məsələləri əks etdirən istənilən gizli informasiyalara çatır: "Digər sorosçu Ermənistan respublikasının məhkəmə sferasına və islah müəssisələrinə rəhbərlik edir. Yuxarıda qeyd edilən sferalar ən mühümləridirlər və belə demək mümkündürsə, informasiyalar baxımından strateji əhəmiyyət daşıyan xüsusi strukturlardırlar. Artıq təsəvvür etmək olar ki, bu sistem siyasi, iqtisadi və ictimai həyatda hansı rıçaqlara malik ola bilər".

"Politik" yazır ki, eyni halı şərti sorosçu, baş prokurorun müavini Srbui Qalyana da aid etmək olar. SİTAT: "Sorosçular Qalyanın vasitəsi ilə sadəcə arzu olunmayan fərdlərin cinayət işlərinə korrupsiya ittihamı yazılması, terrorizə edilməsi üçün yaxşı imkanlar qazanırlar. Əsas budur ki, təqsirkarı tapasan, cinayət işini kodeksdə tapıb-tikmək də olar".

## "Bütün bunlar Ermənistan üçün fövqəladə təhlükə mənbəyidir"

Portalın qeyd etdiyinə görə, artıq polisdə də sorosçu qruplar var. Onlar patrul xidməti altında ən müasir silahlarla, nəqliyyatla, texniki imkanlarla təchiz olunublar. SİTAT: "Bütün bunlar Ermənistan üçün fövqəladə təhlükə mənbəyidir. Bu vasitə ilə sorosçular əllərində olan alətlərlə "dövlət dövlətə qarşı" prinsipini yürüdə bilərlər. Hətta parlamentin 20 deputatını, informasiya-təbliğat resurslarını və maliyyələrini istifadə etməklə, Nikol Paşinyanı da vəzifəsindən uzaqlaşdırmağa nail olarlar. Bütün bunlardan əlavə, yəni sorosçular yerlərini rahatladıqdan, Paşinyanın isə reytinqi sürətlə aşağı yuvarlandıqdan sonra onlar sonuncu dəyişikliklərini - Ermənistanı soroslaşdırmaq proqramlarını birdəfəlik həyata keçirəcəklər".

***Rövşən RƏSULOV***

# "Bölgə ilə paytaxt arasındakı fərq mərhələli şəkildə aradan qaldırıla bilər"



"İnvestisiya mühitinin yaxşılaşdırılması, yerli səviyyədə sərmayə qoyuluşları bölgə ilə paytaxt arasındakı fərqin mərhələli şəkildə aradan qaldırılmasına gətirib çıxara bilər". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü olan deputatı Vüqar Bayramov deyib.

"İdarəetmə aparatının həm yerli, həm də mərkəzi səviyyədə optimallaşdırılması ilə bağlı islahatlar davam edir. Bu, bir sıra mərkəzi icra orqanlarının, eləcə də, qurumların birləşməsinə səbəb olur. Biz bunu əvvəlki illərdə də müşahidə etdik. Eyni zamanda yerli səviyyədə kadr islahatlarının aparılması, gənclərin yerli icra hakimiyyəti orqanlarına rəhbər təyin olunması da yerli səviyyədə islahatların davam etməsindən xəbər verir. Azərbaycan üçün yerli səviyyədə islahatların davam etdirilməsi, xüsusilə də, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin təkminləşdirilməsi bölgələrə investisiyanın cəlb edilməsi baxımından çox vacibdir. Nəzərə alsaq ki, Azərbaycan Prezidenti bir müddət öncə regionlara həm yerli, həm də xarici investisiyanın daha çox cəlb edilməsi ilə bağlı göstərişlər verdi. Həm də investisiya mühitinin yaxşılaşdırılması, yerli səviyyədə sərmayə qoyuluşları bölgə ilə paytaxt arasındakı fərqin mərhələli şəkildə aradan qaldırılmasına gətirib çıxara bilər. Bu baxımdan gözlənilir ki, yerli səviyyədə idarəetmə sisteminin optimallaşdırılması ilə bağlı islahatlar davamlı olacaq" - deyə, millət vəkili bildirib.

Onun sözlərinə görə, kadr islahatları da davam edir, xüsusilə də, yerli icra hakimiyyəti orqanlarının gəncləşdirilməsi siyasəti, yerlərdə investisiya mühitinə, o cümlədən, aktivliyə pozitiv təsir göstərir, bu baxımdan nəticə etibarilə bir tərəfdən bürokrativ əngəllərin azaldılmasına, minimumlaşdırılmasına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına və bölgələrdə fəaliyyət göstərən sahibkarlar üçün yersiz müdaxilələrin aradan qaldırılmasına gətirib çıxaracaq:

"Bu baxımdan gözlənilir ki, yerli idarəetmə aparatında da struktur islahatlar davam etdiriləcək. Bu, idarəetmənin optimallaşdırılması, çevikliyin gücləndirilməsinə, qərarların daha şəffaf və səmərəli şəkildə verilməsinə gətirib çıxaracaq. Həmçinin, biz yerli səviyyədə yerli icra hakimiyyət orqanları ilə bağlı islahatların davam etdirilməsini alqışlayırıq. Daha məqsədəuyğun olardı ki, yerli idarəetmə orqanı ilə əlaqədar daha optimal idarəetmə sistemi yerlərdə formalaşdırılsın ki, bu da yerlərin iqtisadi baxımdan inkişafı üçün ciddi bir zəmin yarada bilsin".

***Nigar Məmmədova***

# Armen Kazaryan: "Avropada sığınacaq axtaran Ermənistan vətəndaşları rədd edilir"



Avropada sığınacaq üçün müraciət etmiş Ermənistan vətəndaşlarının böyük əksəriyyətinin müraciətləri qəbul edilmir və qədd edilir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin Miqrasiya Xidmətinin rəhbəri Armen Kazaryan xarici əlaqələr daimi parlament komissiyasının iclasında deyib. Onun sözlərinə görə, əksər hallarda Ermənistan vətəndaşlarının müraciətləri rədd edilir. Həmçinin qeyd olunur ki, müraciətləri rədd edilənlər sığınacaq üçün müraciət edənlərin 97 faizini təşkil edir.

# "Regnum" agentliyi Rusiyanın Ermənistana yeni silahlar göndərdiyini təsdiqlədi!

Rusiyanın ermənipərəst mövqeyi ilə fərqlənən "Regnum" informasiya agentliyi 4 sentyabr tarixli "Dağlıq Qarabağın yeni ümidləri" adlı məqaləsində Rusiya tərəfindən Ermənistana yeni silahlar göndərildiyini təsdiq edib.

AZƏRTAC xəbər verir ki, ənənəsinə uyğun olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, mahiyyəti və nizamlanması ilə əlaqədar real faktları ən kobud şəkildə təhrif etməkdən çəkinməyən agentlik 2020-ci ilin iyul ayında Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin təxribatı ilə başlayan döyüşlərin həqiqi səbəblərini tamamilə yanlış və açıq qərəzli şəkildə təqdim etməyi də unutmayıb. Diqqəti çəkən məqam ondan ibarətdir ki, sözügedən agentlik iyul döyüşlərindən sonrakı vəziyyəti "Bakının Ermənistana yeni Rusiya silahlarının göndərilməsinə sərt və acıqlı reaksiyası" kimi qiymətləndirməklə, əslində iyul döyüşlərinin ardınca Rusiyanın təcavüzkar Ermənistanı silahlandırdığını təsdiq edib.

# Qabil Hüseynli: "Nikol Paşinyan kimi Anna Akopyanın da pisixi problemləri var"



Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyan işğal altında olan Dağlıq Qarabağa gələrək, erməni qadınlarının iştirakı ilə hərbi təlimlərdə iştirak edib. Bu bir növ erməni terrorunun erməni qadınlar tərəfindən də açıq şəkildə həyata keçirildiyinin əyani sübutu sayıla bilər. Politoloq Qabil Hüseynli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyannın Dağlıq Qarabağa gələrək hərbi təlimlərdə iştirak etməsi terrora açıq çağırışdır.

"Xalqlararası dostluğun möhkəmləndirilməsində analar xüsusi rola malik olurlar. Amma Anna Akopyan qadın olaraq müxtəlif atıcı silah növlərindən istifadə edərək, yalançı pozalar verir", deyən politoloq əlavə edib ki, Ermənistan adlanan qondarma ölkədə millətçilik xəstəliyinə tutulmamış, bu millətçiliyi dəli-divanə şəkilində anlamayan adam qalmayıb: "Onsuz da Ermənistanın baş naziri Nikol Paşinyan kimi Anna Akopyanında pisixi problemləri var. Paşinyanın həyat yoldaşı A.Akopyan gəlib sənrəgərdə yatır. Bu kimi faktlar təsdiq edir ki, bu xalq heç bir qonşusu ilə mehriban şəraitdə yaşamaq istəmir, müharibədən başqa heç nəyi istəmir və həmişə gözlərini başqalarının torpaqlarına tikib və bundan sonrada bu yolu davam etdirmək fikirindədir. Bu başdan ayağa utanc gətirən bir hərəkətdir, əgər ermənilərdə utancaqlıq hissi azda olsa qalıbsa onlar bilməlidirlər ki, bu qadın bataliyonları yaradır ondan sonra Ermənistandakı analarını, bacılarını silahlandırıb, "üstümüzə düşmən gəlir" deyə düşmənə qarşı yönləndirmək bu əslində avantüradan başqa bir şey deyil. Sən işğalçısan, qonşu dövlətin- Azərbaycanın 20 faizə qədər torpağını işğal edibsiniz, əlbəttə ki, rusların yaxın köməyi ilə. Əgər ruslar olmasaydı siz bir qarış torpaq da ələ ala bilməzdiniz və bu gündə ruslar olmasa bir qarışda torpağı əlinizdə saxlaya bilməzsiniz".

Q.Hüseynli bildirib ki, yalandan torpaq üstünə yıxılıb, yalançı pozalar verməklə deyil, döyüş meydanında heç bir qüdrət göstərə bilməzlər: "Bunun hamısını ərazinizdə yerləşdirdiyiniz 102-ci briqadanın və 366-cı motoatıcı diviziyanın əsgərləri və bütövlükdə Rusiyanın pulsuz- parasız hədiyyə kimi verdiyi silahlar hesabına əldə ediblər. Bir sözlə, dünya belə şeylərə baxıb nəticə çıxarmalıdır, dünya görməlidir ki, talerant, humanist xalq kimdir və onun qarşısında duran və axşama kimi Avropa dövlətləri və Rusiya qarşısında ağlayıb sıtqıyan xalq əslində hansı mənəviyyata, hansı dünya görüşə sahibdir və onun Rusiyanın köməkliyi ilə işğal etdiyi xalq hansı mənəviyyata sahibdir. Biz qonşularımızla dinc və rahat yaşamaq istəyirik. Amma bir şərtlə ki, işğal olunmuş torpaqlar geriyə qaytarılsın, torpaqlarmızın üstündən erməni əsgərlərinin ayağı geriyə çəkilsin. Bir sözlə, bəşəriyyətin, insanlığın illərlə işləyib, hazırladığı və ortaya qoyduğu mənəvi dəyərlər, mənəvi normalar normaları var. Ay erməni dığaları siz bu mənəvi dəyərlərə sahiblənmək istəyirsiniz. Hazırda bunların heç biri sizdə yoxdur. Onda BMT-nin qətnamələrinə diqqət yetirin bölgədəki, münaqişə ilə bağlı, hazırda kı, beynəlxalq münasibətlərin məğzinə, mahiyyətinə varın, görün beynəlxalq münasibətlər, yeni dünya nizamı nə cür formalaşır, sizin təfəkkür tərziniz bu yeni dünya təfəkkür tərzinə uyğundurmu? Bir sözlə, çox şeylər söyləmək olar və Allah heç kimə belə bir qonşu rast gətirməsin".

***GÜLYANƏ***

# Azərbaycan müxalifəti “Qarabağ probleminin həllini” necə düyünə saldı?

***Yazının başlığı oxuyanda təəccüblənəcəksiniz. Düçünəcəksiniz ki, müxalifət “Qarabağ probleminin həllini” necə düyünə sala bilər?. Tələsməyin. Bugünkü müxalifətin münaqişənin aradan qaldırılmasına bilərəkdən, yaxud, bilməyərəkdən hər vəchlə mane olmağa çalışması göz qabağındadır. Ancaq bu yazıda söhbət daha çox bu günkü müxalifətdən yox (eyni adamlar olsalar da), 1992-ci ilin martına qədər müxalifətdə, həmin vaxtdan 1993-cü ilin iyununa qədər iqtidarda olan AXC-Musavat birliyindən gedəcək.***

**5-6 mart 1992-ci il.**

Hər şey ondan başladı ki, Prezident A.Mütəllibov birləşmiş müxalifət tərəfindən iki gün parlamentdə “dustaq” saxlanıldıqdan sonra istefa verməyə məcbur edildi. Prezidenti “demokratik yolla” hakimiyyətdən uzaqlaşdıranlar nədənsə hakimiyyəti götürmədilər. Təsadüfən Parlamentin sədri seçilən və heç bir dayağı olmayan Yaqub Məmmədov hakimiyyət yükünü öz üzərinə götürmək məcburiyyətində qaldı. Yük onun üzərində, real hakimiyyət isə müxalifətin əlində idi.

Ölkədəki 69 günlük hakimiyyətsizlik dövrü Şuşa və Laçının itirilməsi ilə nəticələndi. Güman etmək olar ki, Yusif Sərrac rolunu oynaması, bu dəhşətli faciələrin ayağına yazılması üçün Yaqub Məmmədov hakimiyyətdə saxlanılmışdı? Başqa məntiqli izahat tapmaq mümkün deyil.

**Rəhim Qazıyev danışır:**

“Nazir vəzifəsinə yeni təyin olunan kimi “Zabitlər evi”nə getdim (R.Qazıyev 17 mart 1992-ci il tarixdə nazir təyin olunub). Orda 5 ədəd bilyard masası vardı. Gördüm, 2-si qalıb. Rəis dedi ki, “İsa Qəmbərov 3 stolu bağına apartdırıb”. Ona telefonla dedim ki, “İsa, indi televiziyaya çıxıb deyəcəyəm ki, “İsa Qəmbərovun millətə birinci xidməti bilyard stollarını aparmaq olub”. Heç 15 dəqiqə keçmədi ki, İsa gəldi. Dedi, “bir işdi olub, istəyirsən, gətirim, qaytarım”. Mən ona güzəşt etdim”.

Bax belə, real hakimiyyəti olanlar, bilyard oynamaq üçün orduya məxsus stolları asanlıqla “müsadirə” edib götürənlər hakimiyyəti götürmədilər.

**14 may 1992-ci il.**

Müdafiə naziri Rəhim Qazıyev Daşkənddə Rusiyalı həmkarı Pavel Qraçovla görüşdü və onun Gəncədə yerləşən rus desant diviziyasının komandiri Şerbaka-”Rəhim bizim dostumuzdur, ona kömək elə”-tapşırığını verməsinə nail oldu (havayıdan onu aprelin 29-30-da Şəkidə qonaq etməmişdi).

Əvvəlcədən Şerbakla danışıldığı kimi Qraçovun belə göstərişi olsa rus desant diviziyası Şuşanı azad edib (təbii ki,ciddi maliyyə müqabilində), Goran poliqonunda hazırlıq keçən 2700 əsgərimizə təhvil verməli idi.

Şuşanın tezliklə azad olunacağından son dərəcə sevincək olan R.Qazıyev əməliyyatın başlaması üçün təcili Gəncəyə gəldi və Şerbak ona xəbər verdi ki, müxalifət onun əsgərlərini çevriliş etmək üçün Bakıya aparıb. Hakimiyyətsizlik yaradıb Şuşanın işğalına şərait yaradan AXC, əs-



gərləri Bakıya aparmaqla “Qarabağın incisi”nin xilasına imkan vermədi.

**7 iyun 1992-ci il.**

Prezident seçkiləri saxtalaşdırıldı və Ə.Elçibəy prezident seçildi. Yeni iqtidarın hərbi əməliyyatlara başlamaq planlarından xəbər tutan hərbi mütəxəssislər bu “avantüranın” fəlakətlə nəticələnəcəyini dedilər. Elçibəyin müşaviri Yaşar paşa Demirbulaq israrla xahiş etdi ki, atəşkəsə gedib, ordu quruculuğuna başlanılsın. Eşitmədilər.

**12 iyun 1992-ci il.**

Rusların Gəncədəki desant diviziyası Müdafiə nazirliyindən daşınan “kisə-kisə” pullar müqabilində hərbi əməliyyatlara başladı və tezliklə Ağdərə rayonunu, həmçinin Şaumyankənd və ətrafını azad etdi. Əvəzində isə xarici siyasətimizə ağır zərbə vuruldu və Qarabağ problemi üzrə danışıqlarda diplomatiyamız həddindən artıq əlverişsiz vəziyyətə düşdü.

AXC-nin Xarici İşlər naziri Tofiq Qasımov Agdərənin və Şaumyankəndin azad olunmasını təxribat adlandırdı, Qarabağ məsələsinin Azərbaycanın xeyrinə həll olunması üçün ABŞ-ın yüksək dövlət dairələrindən razılıq alındığını və həmin hərbi əməliyyatlar nəticəsində bu imkanın əldən çıxdığını dedi.

**21 iyun 1992-ci il.**

Qarabağ probleminin həlli məqsədilə çağırılması planlaşdırılan ATƏM-in Minsk konfransı Azərbaycan hakimiyyətinin təqsiri üzündən baş tutmadı və daha bir ağır zərbə aldıq.

**24 iyun 1992-ci il.**

Qara Dəniz Hövzəsi ölkələrinin toplantısı. Ermənistan prezidenti Petrosyan dəfələrlə Elçibəylə görüşüb, Dağlıq Qarabağın statusu barədə (Petrosyan yalvarıb-yaxarırdı ki, ermənilərə heç olmasa mədəni muxtariyyat verilsin- Ə.Tahirzadə) razılığa gəlmək istəsə də Azərbaycan prezidenti onunla danışmaqdan imtina etdi. Beləliklə, əlimizə düşən son dərəcə əlverişli şansı itirdik.

**7-11 iyul 1992-ci il.**

ATƏM-in Helsinki sammiti.

Ermənilər aktiv işlədikləri halda Ə.Elçibəy “bacarıqsızlığından və utandığından”(Ə.Elçibəyin Dövlət müşaviri V.Quluzadə) Qarabağ problemini dünya liderlərinə çatdırılması istiqamətində heç bir iş görmədi.

**30 sentyabr 1992-ci il.**

Ə.Elçibəylə heç cür danışa bilməyən Petrosyan müstəqillikdən imtina etməkdən başqa yolun qalmadığını gördü və Rusiya ilə sərhədlərin qorunması ilə əlaqədar müqavilə imzaladı.

Müqaviləyə görə Ermənistanın 345 km Türkiyə ilə, 45 km İranla olan sərhdlərinin və “Zvartnots” beynəlxalq hava limanının qorunması səlahiyyəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin 4500 nəfər əsgərinə verildi. Artıq müstəqilliyini itirən Ermənistan tək deyildi. Artıq Azərbaycan dünənə qədər Gəncədəki rus diviziyasının simasında “müttəfiqi” olan Rusiya ilə müharibə etmək məcburiyyətində qaldı.

Moskvadan gələn əmrlə Gəncə Desant Diviziyası dislokasiya yerinə qayıtdı. Azərbaycan Ermənistan-Rusiya birləşmiş silahlı qüvvələrinə qarşı müharibə meydanında tək qaldı. Dəhşətli fəlakətlərimiz başladı.

**2 aprel 1993-cü il.**

Kəlbəcər rayonu işğal olundu.

Ordu quruculuğundan imtina edib, “maklerlərin” təşkil etdiyi “pullu xidmətlə” torpaqları azad edəcəyini düşünən AXC-Musavat iqtidarı “seytnot” vəziyyətində “hərbi yardım” xahişləri ilə qapılar döydü və hər yerdən “əli ətəyindən uzun” geri döndü.

**15 iyun 1993-cü il.**

AXC-Musavat iqtidarının israrlı xahişlərindən sonra Bakıya gələn Ulu Öndər Heydər Əliyev parlamentin sədri seçildi.

**17 iyun 1993-cü il.**

Prezident Ə.Elçibəy heç kimə deməndən iqamətgahı tərk edib, Kələki kəndinə getdi. Heydər Əliyev tək Azərbaycanın son dərəcə ağır problemləri ilə üz-üzə qaldı. Erməni-rus hücumları şiddətləndi. Nizami ordu mövcud deyildi. Çünki əvvəl A.Mütəllibov, sonra Ə.Elçibəy ordumuzun olmaması üçün hər şeyi etmişdi.

Silahlı qüvvələrimiz AXC-nin, S.Hüseynovun, R.Qazıyevin, E.Məmmədovun və digər şəxslərin batalyonlarından ibarət idi və onların əmrlərini icra edirdi. Bu vəziyyətdən maksimum yararlanan erməni-rus qoşunları tərəfindən qısa müddətdə daha 6 rayonumuz işğal olundu.

Utanmadan, qızarmadan “H.Əliyevin dövründə 6 rayon işğal olunub”-deyənlər anlamırlar ki, Şerbakın Gəncədəki desant diviziyasına güvənən AXC-Musavat iqtidarı hakimiyyəti atıb qaçandan sonra erməni-rus ordusunun qabağına çıxacaq nizami ordu qoyub getməmişdi.

Ulu Öndər Heydər Əliyev də Naxçıvandan Bakıya, Azərbaycanı xilas etmək üçün gələndə özü ilə ordu gətirmək imkanına malik deyildi və gətirməmişdi. Yeni, güclü nizami ordu yaratmağa isə xeyli zaman və vəsait tələb olunurdu.

Beləliklə, əvvəlcə müxalifət, sonra qısa müddətli iqtidar, daha sonra günümüzə qədər və çox güman ki, əbədi müxalifət olacaq AXC-Musavat koalisiyası “Qarabağ problemi”nin həllini düyünə, Azərbaycanı isə fəlakətli vəziyyətə saldı. Əlverişli məqamda Ermənistanla danışıqlardan qaçmaqla erməniləri rusların qucağında oturmağa məcbur etdi və Rusiya-Ermənistan ittifaqının yaranmasında həlledici rol oynadı.

Nəticədə, 30 ilə yaxın müddətdə Azərbaycan Rusiya ilə həm hərbi, həm də diplomatiya sahəsində “vuruşmaq” məcburiyyətində qaldı və bu ağır “müharibə” davam etməkdədir. Məncə anlamaq istəyənlər üçün kifayətdir. Anlamaq istəməyənlər və anlamaq iqtidarında olmayanlar isə...

***Abutalıb Səmədov,***
***Azərbaycan Naminə Alyans***
***Partiyasının sədri***

## TƏBİB gündəlik test sayının az olmasının səbəbini açıqlayıb

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

TƏBİB gündəlik test və yoluxma sayının az olmasının səbəbini açıqlayıb. TƏBİB-dən bildirilib ki, həftənin bazar günləri növbəlilik prinsipi ilə koronavirus testi həyata keçirilən laboratoriyalarda profilaktik dezinfeksiya işləri həyata keçirildiyindən, həmin günlərdə test sayı aşağı olur və ona mütənasib olaraq, yoluxma saylarında azalma müşahidə edilir: ”Sabahdan etibarən karantin rejiminin daha da yumşaldılacağı səbəbindən, bir daha vətəndaşlarımızı sanitar-epidemioloji qaydalara riayət etməyə çağırırıq”.

## Yaşı 18-dən az olan işçi bu sahədə çalışa bilməyəcək



Azərbaycanda yaşı 18-dən az olan işçinin əməyinin tətbiqi qadağan olunduğu işlərin sayı artırılır. SİA xəbər verir ki, bununla bağlı Əmək Məcəlləsinə dəyişiklik təklif edilir. Layihəyə əsasən, energetik içkilərin və tütün məmulatlarının istehsalı daşınması və satışı və saxlanılması ilə bağlı işlər daxil edilir.

## “İran birbaşa Ermənistanın silahlanmasında iştirak edir”



***“İran Rusiyadan göndərilən hərbi yüklərin Ermənistana hava yolu ilə daşınmasını reallaşdırmaqla regionda işğalın davamlı olmasına şərait yaradır. İran həmçinin bu hərbi yüklərin daşınmasında bilavasitə iştirak edir. Rusiya yüngül silahları hava nəqliyyatı, ağır hərbi nəqliyyat və zirehli texnikaları Xəzər dənizi və İran ərazisindən daşıyır”. Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.***

Onun sözlərinə görə, Rusiyanın Ermənistana “İl 76” hərbi nəqliyyat təyyarəsi ilə göndərdiyi silah sursatın daşınması davam edir: “Xəzər dənizi vasitəsilə İrana oradan da Ermənistana zirehli texnika və hərbi nəqliyyat vasitələri daşıyır. Gürcüstan tərəfiinn Rusiyanin ərazisindən hərbi yüklərin daşınmasına icazə vermədiyi üçün Rusiya İran ərazisindən bunu reallaşdırır.

Göründüyü kimi İran birbaşa Ermənistanın silahlanmasında iştirak edir. Bu daşımaları öz nəqliyyat vasitələri ilə təmin edir. İranın Rusiya ilə birgə Azərbaycana qarşı Ermənistanı silahlandırması, Tovuz hadisələrindən sonra daha da intensivləşib və burada Türkiyənin Azərbaycanla birgə hərbi təlimləri və regionda artan siyasi-hərbi üstünlüyü Tehranı da Azərbaycan əleyhinə yer almağa sövq edib. İran bilməlidir ki, regionda Türkiyənin fəaliyyəti Azərbaycana qarşı bu kimi təxribatlarda müdafiə etmək, xüsusilə Ermənistanın Rusiyanın təhriki ilə baş verə biləcək qarşıdurmada müdafiə etməkdir. İran bunları bilərək, özünün regional təhlükəsizliyinə heç bir təhdid olmamasına baxmayaraq Azərbaycan əleyhinə Ermənistan-Rusiya tamdemində yer alır.

İranın bu siyasəti birbaşa Azərbaycana qarşı düşmənçilikdir və dostluq, qonşuluq prinsiplərinin tapdalanmasıdır. Azərbaycan dəfələrlə qeyd edib ki, İrana qarşı ölkə ərazisindən istifadəyə icazə verməyəcək. Rəsmi Bakı İrana qarşı iqtisadi, siyasi və kəşfiyyat layihələrində yer almayacağını İran rəsmilərinin diqqətinə çatdırıb. Amma, İran Azərbaycana qarşı öz ərazisindən hərbi təcavüzün davam etməsinə icazə verir və birbaşa öz nəqliyyat vasitələri ilə silahların daşınmasını həyata keçirir. Rusiya Azərbaycan və Türkiyənin Qarabağla bağlı siyasətindən narahatdır və ona görə də Ermənistanı durmadan silahlandırır. İran da burada yer alıb. Azərbaycan XİN İrana nota verməli, İranın ölkəmizdəki səfiri XİN çağırılıb izahat tələb edilməlidir. Həmçinin buradan Güney Azərbaycana müraciət edirəm, niyə susursunuz? Öz etirazınızı Tehran hakimiyyətinə bildirmirsiz? Stadionlarda “Azərbaycan, Azərbaycan” qışqırmaq olmur!”.

***Ceyhun Rasimoğlu***

# Müxalif çürük məntiqli dönüklülərin...

*Xalqına, dövlətinə düşmənçilik edənlərin bədəli...*

***Xəyanət başqa necə olur ki?! Təbii ki, hər kəs bilir ki, bütün bunları onlar sifariş əsasında həyata keçirdirlər. Birbaşa erməni lobbiçilərinin və diasporasının tapşırıqlarını yerinə yetirirlər. Onlara erməni lobbiçilərinin açıq və ya dolayısı ilə göstərdiyi maliyyə dəstəyi hər kəsə bəllidir.***

Ancaq insan nə qədər şərəfini və ya ləyaqətini itirə bilər ki, indiki situasiyada öz xalqına və dövlətinə qarşı bu cür iyrənc şərböhtan atasan?! Bu şəxslərin satqınlığı və xəyanəti ilə bağlı sosial şəbəkədə status paylaşmışdim. Yazdığım statusa bir gün ərzində yüzdən artıq şəxs rəy yazıb və onların necə satqın və ünsür olduqlarını qeyd edirlər. Və bu davam etməkdədir. Hər kəs mənim facebook profilimə daxil olub, görə bilər. Çox hiddətlə qarşılanır onların xəyanəti.

Bu gün dünyada yaşayan bir erməni görmədik ki, hətta Paşinyan rejiminə ən radikal müxalifətdə olan erməni Sevinc Osmanqızı, Orduxan, Qənimət Zahidov, Tural Sadıqlı, Əli Kərimli, Xəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi satqınlar kimi çıxıb Ermənistanı ittiham etsin və baş verənləri ermənilərin günahı üçbatından olduğunu bildirsin, bəyan etsin. Bu adamlar ermənidən də artıq ermənidilər. Bunlar üçün maddi maraqlar bütün mənəvi dəyərləri aşıbdır. İnsan atasını cavan yaşında qətlə yetirən erməniləri necə müdafiə edə bilər?! Bu adamlar hər fürsətdə dövlət maraqlarımıza və milli maraqlarımızın əleyhinə gedirlər. Ancaq bu gün çox sevindiricidir ki, ictimai qınaq çox yüksək səviyyədədir.

Ən əxlaqsızlıq isə, bəli ən əxlaqsızlıq ondadır ki, bu satqınlar - "sapı özümüzdən olan baltalar" Paşinyanın odunun üstünə, məcazi mənada su tökürlər. Bu mənəviyyatsızın ən yüksək təbəqəsində oturan, Azərbaycana, dövlətə, xalqa qarşı çıxış edən, azərbaycanlıların milli birlik çağırışlarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verən Osmanqızı ilk növbədə şəhid atasına qarşı hörmətsizlik etmiş oldu. Azərbaycanlıların vətənpərvərlik aksiyasını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışan, bununla da ermənilərin mövqeyinə xidmət göstərən, onların cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd edən Osmanqızı gerçək simasını göstərdi.

Erməni siyasi mətbəxində hazırlanan tezislər əsasında bayrağının və şəhidinin qürurunu qoruyan azərbaycanlılara bandit, xuliqan, vətənşüvən deyən Sevinc Osmanqızının çürük, məntiqsiz çıxışı isə mənttiqsiz çürüçıxışı isə ermənidən betər olduğunun göstəricisidir: "Təhlükə yoxdur, sivil mübarizə aparılmaqdadır, mən sizi inandırıram ki, heç erməni tərəfində belə bir niyyət yoxdur. Bu gün bu sivil mübarizəni pozan Azərbaycan tərəfidir.



Rəsmi Bakıdır bu qarşıdurmanı təşkil edən. Erməni həmkarımla sualları cavablandırırdım. Azərbaycanlı gəncdir, müsahibə verir və deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq... Onlar Azərbaycanın imici üçün nəsə yaxşı bir iş görmüş olurlarmı? Baxın, adam deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq. Nədən ötrü vuruşdunuz və savaşdınız? Azərbaycanın imicinin xuliqan, bandit olduğunu təsbit etməkdən ötrümü savaşdınız? Siz nə qazandınız? Və nəyə görə onlar səfirliyin müdafiəsinə qalxmalıdırlar? Mən davanın kimin başlatdığına girməyəcəm. Əhəmiyyətli məsələ də deyildir. Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi demək deyildir. Qarabağ bura deyildir. Savaşlar Qarabağda gedir, savaş Azərbaycanla Ermənistan sərhədində gedir. Siz Azərbaycan səfirliyini müdafiə etmək üçün ora getməyinizlə vətənə xidmət etmiş olmursunuz. Siz burada vətənpərvərlik görürsünüzmü? Vətənpərvərliyin "V" hərfini görürsünüzmü? Bu, şüvənlikdir, vətənşüvənlikdir"... Budur, S.Osmanqızının əsl siması

## Dönüklərin bədəli...

Bu mütləq olacaq. Özü də ağır, bağışlanılmaz. Çünki dünənə qədər bu ölkənin suyunu içib, çörəyini yeyib, havasını udub, müəyyən vəzifəyə yiyələndtkdən sonra sonra oxu xalqına qarşı tuşlamaq ancaq və ancaq alçaqlıq, nankroluq və düşmənçilikdir. Sabiq səfir Arif Məmmədov çıxışlarının, fikirlərinin yanlış olduğunu sübuta yetirməyə ehtiyac yoxdur. O iddia edir ki, guya bir sıra ölkələrdə azərbaycanlılarla ermənilər arasındakı münaqişənin səbəbkarı Azərbaycan hökumətidir və bununla hazırkı rəhbərlik daxili problemlərdən fikirləri yayındırmağa çalışır. 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev onun "fövqəladə və səlahiyyətli səfir" diplomatik rütbəsindən məhrum edilməsi barədə sərəncam verdikdən sonra A.Məmmədov dövlətə külli miqdarda ziyan vurmaqda, büdcə vəsaitlərinin qanunsuz istifadəsində ittiham olunaraq, beynəlxalq axtarışa verilib. A.Məmmədov Azərbaycan xalqına qarşı ermənilər kimi nifrət bəsləyir, Azərbaycanın suverenliyindən qıcıqlanır və mənfur, qaniçən, qoca, uşaq, qadını qətlə yetirən, Xocalı soyqırımını törədən, Azərbaycan ərazilərini işğal edən, bir milyondan çox insanın yurd-yuvalarından didərgin düşməsinə səbəb olan erməniləri azərbaycanlılardan üstün tutduğunu açıq şəkildə bəyan edir.

Budur, çörəyi dizinin üstündə olmaq. Dünən qədər səfir işlədiyi vaxt dedikləri, bu gün ki, çıxışlarında həqiqətə uyğun olmayan, Azərbaycana qarşı qarayaxma kampaniyasına işləyən fikirləri. Bax, budur A.Məmmədovun xisləti. Əsl həqiqətləri sivil formada dünyaya bəyan etmək imkanlarımız daha da genişləndiyi bir zamanda içimizdən çıxan xain A.Məmmədov erməni təəssübkeşliklərini ortaya qoyur və Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiyini nümayiş etdirir. Xüsusilə də, son günlər işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında baş verən hadisələrə görə Azərbaycanı ittiham etməklə əsl riyakarlığını bir daha ortaya qoyur. Bu məxluq xalqımızın haqq davasına qara yaxaraq, işğalçının cinayət əməllərinə haqq qazandırmaq kimi sərsəm fikirlər səsləndirməklə cinayətkarların etdiklərini Azərbaycanın üzərinə atmağa çalışır.

Necə ola bilər ki, bir insan əzizlərini, yaxınlarını vəhşicəsinə qətlə yetirən, xalqına qarşı soyqırımı aktları həyata keçirən terrorçuya dəstək olsun?! İnsan nə dərəcədə xalqına, dövlərinə nifrət etməlidir ki, əli millətinin qanına batan erməni ilə həməy olsun?!

Nə yazıq ki, belə riyakarlarımız, xalq düşmənlərimiz də var və indiyədək kimlər tərəfindən "bəslənildikləri" açıq-aşkar üzə çıxır. Düşmən onlardan Azərbaycana qarşı silah kimi istifadə etdiyini billə-billə yenə də hər şeylərini qrantlara satmağa hazır olduqlarını bir daha nümayiş etdirirlər.

Ancaq artın xalq bir daha xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə xəyanət edən bu ünsürlərin əsl riyakar, xain sifətlərini gördü, əsl həqiqətlərə şahidlik etdi. Hər kəs gördü ki, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli kimi erməni süfrəsindən qidalananlar silahı bizə qarşı tuşlayıblar. Erməni lobbisi məhz bu üzdəniraqlar vasitəsilə azərbaycanlıları təhqir etdirirlər.

Bu səbəbdən də ehtiyatlı olmalıyıq. Hər bir azərbaycanlı bilməlidir ki, düşmənimiz ermənilərdirsə, içimizdə onlardan geri qalmayan düşmənlərimiz də var. Onlardan istənilən zaman bizə qarşı silah kimi istifadə edirlər. merikalı yazıçı Paul Austerin xəyanətkar və satqınlar haqqında gözəl bir fikri var: "Sənə bir dəfə xəyanət edəni bağışlasan, səni yenə istifadə edər. Çünki xəyanət bir ruh halı deyil, xarakterin tökülüş formasıdır".

Yəni bir dəfə xəyanət edən bunu davamlı etməyə artıq öyrənir. Ona görə də xəyanətkara cinsindən asılı olmayaraq, şərəfsiz deyilir. Azərbaycan cəmiyyəti artıq son illərdə bu şərəfsizin və buna bənzər şərəfsizlərini simasını tanımaqdadır. Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa biri deyillər. Belələirini isə xalq heç vaxt bağışlamayacaq!.

***R.HÜSEYNOVA***

## AXCP-Müsavat ReAl-a qaşrı çıxdı və hansı cavablarını aldı?

*İlqar Məmmədov: "Siyasi mövqenin nə olduğunu qanmırlar"*




Ölkədə mövcud olan demokratik və şəffaf siyasi mühit özünə güvənən, siyasi mövqeyini dəyişmədən icra edən, bununla da müxalifətçilik tendensiyasını ortaya qoyan bir sıra partiyaların daxili uğurlar əldə etməsinə də səbəb olmaqdadır. Əbəs deyil ki, qeydiyyatdan keçməyən siyasi partiyaların əksəriyyəti artıq dövlət qeydiyyatından keçərək, rəsmi qaydada fəaliyyətlərini aparmaqdadırlar. O cümlədən, yaranan bir neçə siyasi müxalifət partiyaları da qeydiyyata alınmaqla, öz fəaliyyətlərini rəsmiləşdiriblər. Belə partiyalardan biri də İlqar Məmmədovun sədri olduğu ReAl partiyasıdır. Daha dəqiq desək, ReAl-ın siyasi müxalifət partiyası olaraq təmsilçisinin parlamentdə təmsil olunması, ardınca isə qeydiyyatdan keçməsi, xüsusilə də dövlət başçısı tərəfindən təbrik olunması ölkəmizdəki müasir siyasi mühitə yeni açılım kimi düşdü. Nəinki ReAl, eləcə də digər (MCP, GAP və s.) müxalifət partiyaları ilə də bağlı edilən təbriklər, Prezident Administrasiyasında keçirilən ardıcıl görüşlər və s. kimi amillər ölkəmizin siyasi arenasında yenilik havasını əsdirməkdədir. Təəssüf ki, illərdir özlərini ayrıca müxalifət partiyası kimi zorla ictimai rəyə sırıyanlar, "ana", ya da "ata" müxalifət olduqlarını iddia edənlər dövlətin siyasi dialoqa yandırdığı yaşıl işığa məhəl qoymamaqla yanaşı, mövcud açılıma barmaqrarası baxır, hətta digər müxalifət partiyaların uğurlarına ləkələr atmaqla, əslində, özlərindəki ləkələri ört-basdır etməyə çalışırlar. Amma bunun müqabilində net və qəti cavablarını alır, siyasi düşərgədəki əməlləri ifşa olunur. Bu mənada, məhz ReAl partiyasının rəhbərliyi və funksionerlərinin AXCP və Müsavat kimi köhnəlmiş "ideyalarla" var-gəl edən partiya rəhbərliklərinə verdikləri cavabları ilgincdir.

### Natiq Cəfərlidən Arif Hacılıya: **"Ya sözünüzü sübut edəcəksiniz, ya üzr istəyəcəksiniz"**

SİA xəbər verir ki, Müsavat partiyasının başqanı Arif Hacılı mövcud mənzərədə anidən fikir irəli sürməklə özünü daha çətin vəziyyətə salıb. "ReAl artıq nəinki müxalifət partiyası deyil, həm də hakimiyyətin müxalifətə qarşı istifadə etdiyi resurslardan biridir", fikrini önə sürən Hacılının cavabı gecikməyib və ReAl partiyanın funksioneri Natiq Cəfərli belə bir cavab verib: "Mən sizi ciddi adam sayıram, nə ilə sübut edərsiniz bu absurd iddianızı? Nədir sizi narahat edən?! Son 3 gündə bütün Qərb dövlətlərinin təbrikimi? Deməli, Fransa, ABŞ, Britaniya, AB səfirləri hakimiyyətə işləyir, eləmi?! Yoxsa 27 ildir, elə bilirsiz ki, burda Qərb hakimiyyəti dəyişəcək, siz də kənarda qalacaqsınız?! Siz özünüz azı 5 dəfə müsahibə verib danışıqlara yaşıl işıq yandırdınız, indi nədir dərdiniz?! Elə bilirsiniz ki, xora qoşulmaqdır siyasətçinin işi?! Sizi istənilən internet TV-də debata dəvət edirəm, ya sözünüzü sübut edəcəksiniz, ya üzr istəyəcəksiniz. Buyurun. Gözləyirəm".

Məhz bu net cavabdan sonra nədənsə A.Hacılı susmağa üstünlük verib, üstəlik, debata çıxmağa belə cürət etməyib.

### Erkin Qədirli: **"Arif Hacılı Azər Qasımlıya zəng edib qurultay üçün bizə yer verə bilməyəcəklərini söylədi"**

Partiyanın funksioneri, millət vəkili Erkin Qədirli isə ReAl-ın özünü batırdığını düşünənlərə cavabı ilgincdir. "Bir halda ki, belə məcazlarla düşünürlər, ReAl-ın bir dənizaltı (submarine) olduğunu düşünsünlər. Dənizaltının özünü batırmaq bacarığı ona bir sıra üstünlük qazandırır", deyə o ittiham edən tərəflərə bildirib. Lakin deputatın "haqdan-ədalətdən" danışan Müsavat başqanı Arif Hacılını ifşa edən daha bir məsələni xatırlatması, necə deyərlər, yerinə düşüb. E.Qədirli xatırladıb və bildirib ki, hökumətlə heç bir anlaşmaları olmasa da, vaxtilə Müsavatla olub və müsavatçılar bu anlaşmanı pozublar. Həmin fikirlərin bir hissəni xatırladırıq. SİTAT: "2018-də ReAl qurultay üçün Müsavatdan yer istəmişdi... Dostlarımız danışıqlardan sevincək qayıtdılar və Müsavatla yerlə bağlı anlaşdıqlarını dedilər. Üstündən bir neçə gün keçəndən sonra Arif bəy, yanılmıramsa, Azər Qasımlıya zəng edib qurultay üçün bizə yer verə bilməyəcəklərini söylədi. Bu dəfə də Azər bəy danışığa getmək istəmədi, düz də etdi. Amma bu dəfə məni göndərdilər, çünki mən yumşaq danışıram, kompromislərə, bir qayda olaraq, açıq oluram, qarşı tərəfin qayğılarını yaxşı anlayıram və s. Arif bəylə söhbətimizin detallarını yazmaq istəmirəm... Arif bəyə dedim ki, ReAl Müsavat üçün ən uyğun çıxış yoluna bəribaşdan razıdır, bizə görə kimsəyə ziyan dəyməsini istəmirik. Arif bəy bir bəyanat hazırladı, biz də onu dəstəklədik. Ayrıca, o məsələ haqqında heç yerdə danışmayacağımıza söz verdik. Sözümüzü də tutduq. İndi özümə sual verməyim gəlir - biz sözümüzü niyə tutduq? Sonradan Arif bəyin bizi satılmışlıqda suçlaması üçünmü? ReAl-ı sevməyə bilərsiniz, onu söyə də bilərsiniz. Amma ReAl-ın çox aydın bir üstünlüyü var - ReAl açıq oynayır, kimsəyə ziyan vurmur, kimsəni söymür, atmır, satmır... "

### İlqar Məmmədov: **"Altı ay əvvəl parlament seçkilərinin nəticələrini tanımadığını bəyan edən klaviatura qəhrəmanlarından kimsə bu parlamentin təyin etdiyi vergiləri ödəməkdən imtina etdi?"**

Yeri gəlmişkən, partiyanın sədri İ.Məmmədov da sosial şəbəkələrdə ona və partiyadaşlarına qarşı başladılan hücumlara kifayət qədər ilginc və maraqlı cavab verib. Onun cavabının isə AXCP sədri Əli Kərimliyə olması qarşı tərəfi "klaviatura qəhrəmanı" adlandırmasından açıq-aydın hiss olunmaqdadır. SİTAT: "Altı ay əvvəl parlament seçkilərinin nəticələrini tanımadığını bəyan edən klaviatura qəhrəmanlarından kimsə bu parlamentin təyin etdiyi vergiləri ödəməkdən imtina etdi? Yox. Kimsə bu parlamentin qanunlarına tabe olmaqdan imtina etdi? Yox. Bax budur, savadsız bəyanatları sizə sırıyanlar siyasi mövqenin nə olduğunu qanmırlar. Sənin siyasi mövqeyin qarşındakı gücün bircə sualına cavab verməlidir: "Yoxsa nə?" Bu suala ağlabatan, ya da təsirli əməli cavab verə bilmədinsə, sənin "mövqe"yin klaviatura şırıltısından başqa bir şey deyil". Beləliklə, fakt budur ki, əgər ölkədə siyasi açılım baş verirsə, bunu siyasi uğur kimi görməyənlərin cavablarını elə zamanında onlarla bir olanlar, ziyanlı yolun yarısından vaxtında geri çəkilənlər verdilər. Bu cavabların hər birinin kökündə isə, həqiqətlərin dayandığı şübhəsizdir...

***Rövşən RƏSULOV***

# Azərbaycanın milli ailə dəyərlərinin dünya səviyyəsində təbliği

***Prezident İlham Əliyevin Dini liderlərin II Bakı Sammitində səsləndirdiyi bu fikirlər sözün hər bir mənasında milli dəyərlərin, xüsusən də ailə dəyərlərinin bizim üçün ən böyük sərvət olduğuna işarədir. Bu həm də son zamanlar tez-tez gündəmə gətirilən Avropa dəyərlərinin yerli-yersiz təbliğatına qarşı ən arqumentli cavabdır.***

Təbii ki, cənab Prezidentin qeyd etdiyi kimi, bu dəyərlərə sahib çıxmaq, onları qorumaq, təbliğ etmək peşəsindən asılı olmayaraq hamımızın ən vacib işidir.

Yaşadığımız dövr internet əsridir. Müasir informasiya texnologiyaları vasitəsilə hər gün ailə içərisinə zərərli-zərərsiz milyonlarla informasiya daxil olur. Ölkə rəhbəri diqqətimizi ona çəkir ki, dünyanın müxtəlif yerlərində milli-mənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, azərbaycançılıq ruhuna, təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər sistemi" aşılanır. Bu şəraitdə böyüməkdə olan gənc nəsli də milli vətənpərvərlik əzmində, eyni zamanda ənənəvi dəyərlər ruhunda tərbiyə etmək, əsl Azərbaycan vətəndaşı yetişdirmək çətin prosesdir.

Şərqlə Qərbin, Avropa ilə Asiyanın, İslam sivilizasiyası ilə xristian mədəniyyətinin sərhədlərində yerləşən Azərbaycan həm də ailə dəyərlərinin ciddi qorunduğu bir ölkə olaraq tanınır. Əgər əlimizin altında xəritə varsa, ona diqqətlə nəzər salsaq, görərik ki, qədim - bütöv Azərbaycan həmişə dünyanın aparıcı sivilizasiyalarının mərkəzində durub. Oda pərəstişliyin bünövrəsi də burada qoyulub, Zərdüşt peyğəmbərin atəşpərəstliyi vahid allahlığa çevirməyi də. İstər ilkin xristianlığın sürətlə yayılması, istərsə də böyük İslam mədəniyyətinin zənginləşməsi məhz Azərbaycanımızla bağlıdır. Dünyada elə bir millət də tapmaq çox çətindir ki, ailə dəyərləri ilə yaşayan insanların həyatı bütövlükdə poeziya ilə əhatələnsin: azərbaycanlı doğulanda - bayatı ilə qarşılanır, evlənəndə nəğmələrlə təbrik edilir, həyatdan köçəndə də mərsiyələrlə - ağılarla yola salınır.

Azərbaycan milli bədii söz sənəti kimi, kökləri qədimlərə çıxan poeziyası da bu təsirlərə görə həm açıq, həm sinkretik, həm də qlobal kulturoloji hadisədir. Bunu biz miladdan əvvəlki Qobustan qayalarına həkk olunmuş ilkin qayaüstü poetik rəsmlərdə də, xalqın lirik geninə çevrilmiş bayatılarda da, dini baxışlarının toplusu olan "Avesta"da da, ədəbi-bədii fikirlərin cəmi kimi qiymətləndirilən "Kitabi-Dədə Qorqud" eposunda da görürük, eyniliklə qədim türkcəmizdə, ərəbcə, farsca, çağdaş azərbaycanca, daha sonralar rusca, ingiliscə və başqa dillərdə yaradılan ədəbi-bədii nümunələrdə də müşahidə edirik. Daha peşəkar baxışla nəzər salsaq, Qədim Şərq, türk, Azərbaycan, yunan, ərəb, İslam, Avropa, Qərb, Rusiya, keçmiş sovet, eləcə də dünyanın modern ədəbi-poetik texnologiyalarının tələblərinə cavab verən zəngin ədəbi irsin də biz araşdırıcılara yuxarıdakı kulturoloji mülahizəni yürütməyə imkan yaratdığını görərik.

Cəmilə Çiçək yazır ki,müqayisəli-tarixi metodla Azərbaycan, deməli, həm də Şərq və Qərb - dünya ailə-məişət əlaqələrini tədqiqə cəlb edəndə görürük ki, bu kulturoloji hadisə çox mürəkkəb və ənənəviliyini qoruyub saxlamaqla, həm də istənilən zaman üçün moderndir - yenilikdir.

Ailəni, qarşılıqlı sevgini ictimai-sosial model kimi təsvir edən dünya ədəbiyyatının böyük korifeyi Nizami Gəncəvinin yaradıcılıq enerjisində bunu daha aydın görürük. Dövrünün qədim yunan, Roma, xaçpərəstlik, atəşpərəstlik, fars, türk, ərəb və Azərbaycan ədəbi-poetik, mədəni-fəlsəfi düşüncəsini özünün ölməz "Xəmsə"sində - beş mənzum romanında, həmçinin, divanındakı lirik-poetik nümunələrdə ustalıqla bəşəriyyətin kulturoloji irsinə çevirən ulu Nizami həm öz çağında, həm də indiyə qədər mədəni məkana qədəm qoyan mütəfəkkirlərin yaradıcılığında bu irsi bəşəriyyətin etik və ailə dəyərlər sisteminə çevirib. Avropa ədəbiyyatının klassiki sayılan İohanq Höte özünün "Qərb-Şərq divanı"nda bunu çox incə nüanslarla verir...

XIX yüzilliyə qədər yaxın və uzaq xalqların elmifəlsəfi söz sənətinə təsiredici enerjisiylə seçilən Azərbaycan düşüncə texnologiyası o dövrdən başlayaraq artıq öz istiqamətini dəyişməyə və üzünü Avropa həyat tərzinə, düşüncəsinə tərəf tutmağa başladı. Rusiya, İran və Osmanlı imperiyaları arasındakı qlobal savaşlar nəticəsində parçalanaraq üç yerə - Güney, Quzey və Qərbi Azərbaycana bölünmüş məmləkətimizdə məhz bu dövrdən başlayaraq bütün sahələrdə olduğu kimi, ailə dəyərləri sistemində də avropalaşma prosesi getdi. Bu ümummilli hadisə aralıq sivilizasiya və ya mədəniyyətlərin sərhədində yerləşən, Rusiya imperiyasının əsarətində olan Şimali Azərbaycanda özünü daha kəskinliklə büruzə verdi. Avropa ailə dəyərləri bizim cəmiyyət üçün naməlum olsa da, yad deyildi: ən azı ona görə ki, bu dəyərlərin formalaşmasında Azərbaycan insanı və məmləkəti birbaşa iştirak etmişdi.

Yada salmaq pis olmazdı ki, vaxtilə qədim yunan, Roma və ilkin xaçpərəstlik dövrünün ən dəyərli ədəbibədii, elmi-fəlsəfi əsərləri məhz əslən Azərbaycandan olan, dövrün böyük elm adamları tərəfindən elmi ünsiyyət vasitəsinə çevrilmiş ərəbcəyə tərcümə edilmiş, alimlərimiz bu elmi-intellektual bazanın yaradılmasında birbaşa iştirak etmiş, əsərlərini bu dildə yazan çoxsaylı türk-azəri ustadlarının böyük zəhməti sayəsində bu biliklər həm də Avropaya ötürülmüşdür. Sözsüz, tərcüməylə yanaşı, bu ağır intellektual-kulturoloji zəhmətə qatlaşanların mütərəqqi fikirləri, çoxsaylı elmi qeydləri, izahları, hətta müstəqil əsərləri İntibah dövrü Avropa ədəbi-mədəni, elmi-fəlsəfi düşüncəsinin, çağdaş Qərb sivilizasiyasının humanitar dəyərlərinin formalaşmasında xüsusi rol oynamışdır. Odur ki, estetik genində Azərbaycan milli düşüncəsinin genetik kulturoloji izləri yatmış Avropa sivilizasiyası ilə toqquşanda Azərbaycanda yeni və maraqlı bir mədəni proses başladı. Əgər bütün bunları unutmasaq və sivil beynəlxalq elmi-mədəni ictimaiyyətin diqqətinə çatdırsaq, qlobal dünyada öz yerimiz, layiqli mövqeyimiz olacaq...

Bütün sahələrdə olduğu kimi, ailə münasibətlərində də millilik dövrünün bitdiyini hamımız yaxşı anlasaq da, onun yeni, modern fəlsəfəsi heç vaxt itmir: o, sadəcə, formasını dəyişir, yeni texnologiyalara uyğunlaşır. Azərbaycan ailəsinin modern formasının sərhədlərini axtarıb tapmaqda isə bizə klassik bilgilərlə yanaşı, yeni dəyərlər sistemi də yardımçı ola bilər...

***Vahid Ömərov f.ü.f.d. dos.***

XIX yüzilliyə qədər yaxın və uzaq xalqların elmifəlsəfi söz sənətinə təsiredici enerjisiylə seçilən Azərbaycan düşüncə texnologiyası o dövrdən başlayaraq artıq öz istiqamətini dəyişməyə və üzünü Avropa həyat tərzinə, düşüncəsinə tərəf tutmağa başladı. Rusiya, İran və Osmanlı imperiyaları arasındakı qlobal savaşlar nəticəsində parçalanaraq üç yerə - Güney, Quzey və Qərbi Azərbaycana bölünmüş məmləkətimizdə məhz bu dövrdən başlayaraq bütün sahələrdə olduğu kimi, ailə dəyərləri sistemində də avropalaşma prosesi getdi. Bu ümummilli hadisə aralıq sivilizasiya və ya mədəniyyətlərin sərhədində yerləşən, Rusiya imperiyasının əsarətində olan Şimali Azərbaycanda özünü daha kəskinliklə büruzə verdi. Avropa ailə dəyərləri bizim cəmiyyət üçün naməlum olsa da, yad deyildi: ən azı ona görə ki, bu dəyərlərin formalaşmasında Azərbaycan insanı və məmləkəti birbaşa iştirak etmişdi



**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

8 sentyabr

# SƏS

Son səhifə

## Fati İspaniya millisinin tarixinə düşdü



Futbol üzrə İspaniya millisinin üzvü Ansu Fati yığmanın tarixinə düşüb. Qol.az xəbər verir ki, UEFA Millətlər Liqasının 2-ci turunda evdə Ukraynaya 4:0 hesabı ilə qalib gələn ispanların 3-cü qolunu vuran gənc futbolçu rekorda imza atıb.

32-ci dəqiqədə fərqlənən yarımmüdafiəçi millinin tarixində qol vuran ən gənc futbolçu olub. "Barselona"nın futbolçusu 17 yaş 311 günlüyündə buna nail olub. O, bununla 95 illik rekordu yeniləyib. Əvvəlki rekord 1925-ci ildə İsveçrə ilə oyunda qol vuran Xuan Errazquinə məxsus idi. O, 18 yaş 344 günlüyündə fərqlənib.

## Messi "Barselona"nın yeni formasını təqdim edib




"Barselona" yeni formasını təqdim edib. Katalon klubunun rəsmi Tvitter səhifəsində yer alan məlumatda deyilir ki, bir müddətdir Kataloniya təmsilçisinin rəhbərliyi ilə arasında problem yaşanan komandanın kapitanı Lionel Messi də təqdimetmədə iştirak edib. O, üçüncü formanı təqdim edib.

Xatırladaq ki, argentinalı hücumçu bir neçə gün əvvəl "Barselona"dan ayrılmaq istədiyini, ancaq klubunu məhkəməyə verməmək üçün fikrini dəyişdiyini açıqlayıb.

## ŞOK: Qlobal istiləşmə viruslara "həyat verir"...

Səthi sulara düşən enteroviruslar və başqa patogen viruslar yüksək temperatur, günəş işığı və digər mikrobların təsirindən öz fəaliyyətini itirə bilər. Bunun-la da onların xəstəliyi yaymaq qabiliyyəti azalır.

Lakin "Environmental Science & Technology" jurnalında öz tədqiqatlarını təqdim edən alimlər bildirirlər ki, qlobal istiləşmə virusların inkişafına şərait yarada, onları məlum dezinfeksiyaedici vasitələrə, o cümlədən xlora qarşı daha az həssas edə bilər. SİA "MedikForum" saytına istinadla bildirir ki, komanda günəş işığı imitasiyası ilə və ya ondan istifadə etmədən nümunələri göl suyunda kolbalarda 10 və 30 dərəcə temperaturda inkubasiya edərək, insanın enterovirusunun dörd müxtəlif populyasını yaradıb. Sonra tədqiqatçılar günəş işığını və bakteriyaların mövcudluğunu imitasiya edərək virusları istinin təsirinə məruz qoyublar. Alimlər müəyyən ediblər ki, ılıq suya uyğunlaşdırılan viruslar soyuq suya uyğunlaşdıralan viruslarla müqayisədə istidə fəallığını itirməyə daha dayanıqlıdırlar. İsti suya uyğunlaşdırılan viruslar sərin suya yerləşdirilərkən soyuq suya uyğunlaşdırılan ştammlara nisbətən daha uzun müddət fəal qalıblar. Bundan başqa onlar xlorun təsirinə daha dözümlü olublar.



## Qədim Tibet üsulu ilə orqanizmin təmizlənməsi



Yaşadığımız həyatda hər gün yüzlərlə kimyəvi maddənin təsirinə məruz qalırıq. Qəbul edilən qidalardakı konservant və rəngləyici qatqılar, havadakı tüstü və zəhərli qazlar, siqaret və spirtli içkilər hüceyrələri zədələyir, müxtəlif xəstəliklərə və vaxtından əvvəl yaşlanmaya səbəb olur. Ona görə də vaxtaşırı orqanizmi təmizləmək və hüceyrələrin yenilənməsini sürətləndirmək lazımdır. Orqanizmin duz və yağlardan təmizlənməsi, maddələr mübadiləsinin yaxşılaşdırılması, qan damarlarının elastikliyinin artırılması, miokard infarktı və insult riskini azaldılması, görmə qabiliyyətini yaxşılaşdırılması cavanlaşmanın ən vacib elementləridir.

AZƏRTAC xəbər verir ki, həkim-fitoterapevt Elnur Eldaroğlu Tibet təbabətinə aid olan həmin reseptlərdən birini təqdim edir.

Həmin reseptə əsasən qabıqdan təmizlənmiş 200 qram sarımsaq taxta həvəngdəstədə əzilir, gil və ya şüşə qaba yerləşdirilir, üzərinə 200 ml 70 faizli spirt əlavə olunur, qabın ağzı kip bağlanır, 10 gün qaranlıq yerdə saxlanılır, sonra bez parçadan süzülür. Sarımsaq cövhəri 50 ml südlə qəbul edilir. Birinci gün səhər 1, günorta 2, axşam 3, ikinci gün səhər 4, günorta 5, axşam 6 damcı qəbul edilərək 5-ci gün qəbul edilən damcıların miqdarı 15-ə çatır, 6-cı gün səhər 15 damcı, günorta 14, axşam 12 damcı qəbul edilməyə başlayır və hər dəfə azaldılaraq 10-cu gün axşam bir damcı qəbul edilir. Bundan sonra cövhər qurtarana qədər gündə 3 dəfə 25 damcı qəbul edilir. Müalicə kursu 5 ildən bir təkrar oluna bilər.

## Bakıda velosipedlərə qənim kəsilən şəxs tutuldu

Oğurluq etdiyinə görə tutulmuş E.Qocayevin paytaxtın Nizami rayonu ərazisində daha 5 nəfərə məxsus velosipedləri oğurlaması da müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, oğurluq etdiyinə görə tutulmuş E.Qocayevin ətrafında Bakı ŞBPİ-nin Cinayət Axtarışı İdarəsi və Xətai RPİ 34-cü PŞ-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun Nizami rayonu ərazisində daha 5 nəfərə məxsus velosipedləri oğurlaması da müəyyən edilib.



## Keçmiş məhkum evdən oğurluq etdi

Binəqədi rayonu ərazisindəki evlərin birindən 200 ABŞ dolları oğurlamaqda şübhəli bilinən R.Mirzəyev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 43-cü PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 5-də rayon ərazisindəki evlərin birindən 200 ABŞ dolları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Mirzəyev saxlanılıb.



## 22 yaşlı oğlan atasını bıçaqlayıb

Bakıda oğul atasını bıçaqlayıb. SİA xəbər verir ki, hadisə paytaxtın Binəqədi rayonu, 28 May qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1998-ci il təvəllüdlü Xəyyam Məmmədov münaqişə zəmində eyni ünvanda yaşayan atası Qəhrəman Məmmədovu bıçaqlayıb. Zərərçəkmiş Kliník Tibbi Mərkəzə yerləşdirilib. Faktla bağlı Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlanıb.



## ELAN

"ASAN XİDMƏT" tərəfindən Bakı şəhəri Xətai rayonu Ə.Şıxlinski 25, mən 71-də yaşayan Elnur Əliheydər oğlu Şükürovun adına verilmiş ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

***

Bank "BTB" ASC-nin "Sənaye" filialına məxsus, 28 fevral 2020-ci il tarixində qeydiyyata alınmış, BTB-İP seriyalı, 001196 nömrəli ipoteka kağızı itirilmişdir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600